# Mina terroru Naxçıvandan da yan keçmir



**Ölkəmiz erməni işğalını aradan qaldırsa da, hayların, necə deyərlər, nişanəsi olan mina problemini aradan qaldırmaq ciddi çətinliklər yaradır. Bu da səbəbsiz deyil. Çünki ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi gərgin zəhmət, uzun zaman və böyük maliyyə resursu tələb edir.**

Bugünlərdə növbəti belə xoşagəlməz hadisə yaşanıb. Avqustun 11-də Naxçıvan Muxtar Respublikasının (MR) Şahbuz rayonunun Ermənistanla təmas xətti olmuş və minalardan təmizlənməmiş Kükü kəndinin “Qanlıgöl” yaylağı adlanan ərazisində mina partlayışı hadisəsi baş verib. Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, hadisə nəticəsində 2005-ci il təvəllüdlü Şərur rayon sakini Bəxtiyar Sultanov müxtəlif dərəcəli xəsarətlər alıb. O, dərhal xəstəxanaya çatdırılıb və zəruri tibbi yardımlar göstərilib, hazırda vəziyyəti ağır olaraq qalır.

Şahbuz Rayon Prokurorluğunun əməkdaşları tərəfindən prokuror-kriminalist və Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin iştirakı ilə hadisə yeri müayinə olunub və digər zəruri prosessual hərəkətlər icra edilib. Faktla bağlı Şahbuz Rayon Prokurorluğunda araşdırma aparılır.

(ardı 4-cü səhifədə)


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 171 (30575) 13 avqust 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# QAFQAZIN “BARIT ÇƏLLƏYİ”NI PARTLATMAQ İSTƏYƏNLƏR

## Bakının təmkini və iradəsi Qərbin Ermənistanla bağlı məkrli planlarını pozur



**Qarşıdan sentyabr gəlir. Bizim üçün ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməyimizin, bölgədə separatizmin kökünü kəsməyimizin ildönümü yaxınlaşır. Yəni, postmünaqişə dövrünün bir yaşı tamam olsa da, hələ də ABŞ, Fransa və Qərbin digər siyasi mərkəzləri rəsmi Bakının hövsələsini tarıma çəkməkdə davam edirlər. Bəli, onlar açıq-açığına Azərbaycanı savaşa təhrik edirlər. İntəhası, öz problemlərini özü həll etmiş rəsmi Bakı təmkinli davranır, siyasi iradə nümayiş etdirir. İndi Azərbaycan rəhbərliyi Ermənistana növbəti dəfə həddini bildirəcək savaş qərarını Cənubi Qafqazda maraqlarını güdən kənar aktorların deyil, məhz öz mənafeyinə uyğun məqamda və sərfəli şərtlər daxilində qəbul etməyə üstünlük verəcək...**

(ardı 3-cü səhifədə)

# İqlim dəyişikliyi dünyada ümumi tərəqqini əngəlləyir



**Dünya Bankının (DB) hesabatına əsasən, bu maliyyə qurumu gələcəkdə iqlim dəyişikliyi ilə mübarizəyə ayrılan vəsaitin həcmini diqqətdə saxlamaqla bərabər, həm də investisiyaların təsirini davamlı izləməyi qarşıya mühüm vəzifə kimi qoyub.**

20-dən çox ölkəni əhatə edən həmin hesabatda göstərilir ki, iqlim dəyişikliyi ölkələrin uzunmüddətli inkişaf məqsədlərinə çox ciddi təhlükə yaradır. Buna görə də beynəlxalq miqyasda nəzərdə tutulan layihələr reallaşdırılarsa, emissiyalar azalar və bu, iqtisadiyyatların böyüməsinə müsbət təsir göstərər. Belə keçidi həyata keçirmək üçün lazım olan maliyyə resursları orta hesabla ÜDM-in, təxminən, 1,4 faizini təşkil edir. Özəl sektorun fəal iştirakı ilə bu məbləğ kifayət qədər əlçatandır.

(ardı 8-ci səhifədə)

# İranın “qırmızı xətt”i



**Məlumdur ki, İranın Ermənistanla bağlı “qırmızı xətt” ritorikası var idi. Ötən il İslam Respublikasının müvafiq rəsmiləri, az qala, əllərinə düşən hər tribunada bildirirdilər ki, Tehran Ermənistanın ərazi bütövlüyünü və suverenliyini özü üçün həyati əhəmiyyətli sayır. İndi İran “qırmızı xətti”ni yenidən yada salıb. Görəsən, üzərindən bir il keçdikdən sonra, Tehranın sözügedən ritorikaya qayıdışı nə ilə bağlıdır? Yazımızda suala cavab tapmağa çalışacaq və bəzi məqamlara toxunacağıq. Ancaq əvvəlcə qısa arayış verək.**

(ardı 4-cü səhifədə)

# Ukraynanın Kurska hücumu hərbi manevrdir



Səhifə ⇨ 11

# Paris-2024: Azərbaycan Olimpiyalar tarixində ən yüksək uğur qazandı!



Səhifə ⇨ 12

# LOGİSTİKA MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ İLƏ ƏMƏKDAŞLIĞIMIZIN ÖNƏMLİ SAHƏSİDİR



Səhifə ⇨ 7

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nın 6.1.2-ci yarımbəndinə “40 faizi” sözlərindən sonra “, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müəyyən etdiyi meyarlara uyğun olaraq yerli istehsala aid edilən müasir suvarma sistemlərinə münasibətdə isə 60 faizi” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2024-cü il**

# “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 160 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissəsində “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin.

2. Həmin Sərəncamla təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” üzrə:

2.1. adında “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissə üzrə:

2.2.1. birinci abzasda “2022–2026-cı” sözləri “2022–2028-ci” sözləri ilə əvəz edilsin;

2.2.2. on birinci abzas üzrə:

2.2.2.1. birinci cümlədə “400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000” sözləri “500” rəqəmləri ilə, “və magistratura” sözləri “, magistratura və doktorantura” sözləri ilə əvəz edilsin;

2.2.2.2. aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Ali təhsilin doktorantura səviyyəsində ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun ixtisaslara üstünlük verilməsi Azərbaycan Respublikasında akademik potensialın gücləndirilməsini, elmi-texniki və intellektual potensialın artırılmasını, elmi yaradıcılığın inkişafını və elmi biliklərin yayılmasını təmin edəcəkdir.”;

2.3. 2-ci hissənin üçüncü abzasının ikinci cümləsinə “artırır” sözündən sonra “, elmi kadr hazırlığının səmərəliliyinin yüksəldilməsini, ölkənin elm və innovasiya potensialının gücləndirilməsini şərtləndirir” sözləri əlavə edilsin;

2.4. 4-cü hissə üzrə:

2.4.1. birinci cümlədə “2022–2026-cı illərdə, hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə 2000” sözləri “2022–2028-ci illərdə, hər il 500” sözləri ilə əvəz edilsin;

2.4.2. ikinci cümlədə “ən azı 80 faizi” sözləri “2022–2024-cü illərdə 80 faizədək hissəsi” sözləri ilə əvəz olunsun və həmin cümləyə “səviyyəsini” sözündən sonra “, 2025-ci ildən başlayaraq isə 25 faizindən çox olmayan hissəsi ali təhsilin bakalavriat səviyyəsini və 20 faizindən çox olmayan hissəsi ali təhsilin doktorantura səviyyəsini” sözləri əlavə edilsin;

2.5. 5-ci hissənin altıncı abzasından “təhsilin bakalavriat və magistratura səviyyələri üzrə” sözləri çıxarılsın;

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.2-ci bəndin üçüncü abzasında “da gücləndirəcəklər” sözləri “gücləndirəcək, ali təhsil müəssisələrinin beynəlxalq reytinqinin yüksəlməsinə və elm-tədqiqat profilli təhsil müəssisələrinə çevrilməsinə şərait yaradacaqlar” sözləri ilə əvəz edilsin;

2.6.2. 6.3-cü bəndin ikinci abzasının ikinci cümləsindən “isə” sözü çıxarılsın və həmin cümləyə “magistratura səviyyəsində” sözündən sonra “, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun ixtisas üzrə təhsil almaq istəyən, elmi nəticələri və elmi potensialı olan yaradıcı gənclərə isə ali təhsilin doktorantura səviyyəsində” sözləri əlavə edilsin;

2.7. 9-cu hissə üzrə:

2.7.1. 9.1-ci bənd üzrə:

2.7.1.1. “Əsas icraçı orqan (qurum)” sütununda “Təhsil Nazirliyi” sözləri “Elm və Təhsil Nazirliyi” sözləri ilə əvəz edilsin;

2.7.1.2. “İcra müddəti” sütununda “2022” rəqəmləri “2024” rəqəmləri ilə əvəz edilsin;

2.7.2. 9.2-ci bənd üzrə:

2.7.2.1. “Digər icraçılar” sütununa “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

2.7.2.2. “İcra müddəti” sütununda “2022” rəqəmləri “2024” rəqəmləri ilə əvəz edilsin;

2.7.3. 9.3-cü bənd üzrə:

2.7.3.1. “Əsas icraçı orqan (qurum)” sütununa “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

2.7.3.2. “İcra müddəti” sütununda “2022” rəqəmləri “2024” rəqəmləri ilə əvəz edilsin;

2.7.4. 9.4-cü bənd üzrə:

2.7.4.1. “Digər icraçılar” sütununa “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

2.7.4.2. “İcra müddəti” sütununda “2022” rəqəmləri “2024” rəqəmləri ilə əvəz edilsin;

2.7.5. 9.5-ci bəndin “İcra müddəti” sütununda “2022–2026” rəqəmləri “2022–2028” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2024-cü il**

# Kənd təsərrüfatı naziri Qaxda

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Qax rayonunda təsərrüfatlara baş çəkib, fermerlərlə görüşüb.**



Turaclı kəndində “Zərqanad” Arıçılıq Məhsullarının İstehsalı Kooperativinin üzvləri ilə görüşən nazirə kooperativin formalaşması zərurəti, arıçılıq məhsullarının istehsalı, qablaşdırması barədə məlumat verilib. Daha sonra nazir Zəyəm kəndində 40 hektar sahədə salınmış intensiv bağla tanış olub.

Nazir, həmçinin Qorağan kəndində yeni qurulmuş qarğıdalı qurutma məntəqəsinin fəaliyyəti ilə tanış olub. Bildirilib ki, rayonda qarğıdalı əkini sahələrinin artması bu cür müəssisələrin yaradılmasını zəruri edir. Məhsul yığımı dövründə məhsulun nəmlik göstəricilərinin çox olması məhsulu uyğun qiymətə satmağa imkan vermir. İndiki halda isə qarğıdalı qurutma məntəqəsi fermerlərə öz məhsullarını standartlara uyğun şəkildə, mexaniki üsulla qurudaraq qablaşdırmaq və uzun müddət saxlamaq imkanı yaradır.

M. Məmmədov, eyni zamanda Qaxda fəaliyyət göstərən “Ulu Agro” MMC-nin Qax Aqroparkında yeni soyuducu anbarın inşası ilə tanış olub.

Görüşdə səsləndirilən təkliflər qeydə alınıb, fermerlərə nazirliyin müvafiq struktur bölmələri ilə əməkdaşlıq etmək tövsiyə olunub.

**XQ**

# Qarabağda yenə silah-sursat aşkarlandı

**Vətən müharibəsi və antiterror əməliyyatlarından sonra Böyük Qayıdış prosesinin sürətləndirilməsi və təhlükəsizliyin etibarlı təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin əməkdaşları qarşıya qoyulan tapşırıqları peşəkarlıqla icra edirlər.**

DİN-in mətbuat xidmətindən verilən məlumata görə, bölgənin silah-sursatlardan, partlayıcı maddələrdən təmizlənməsi prosesi fasiləsiz davam etdirilir. Ötən həftə polis əməkdaşları tərəfindən Xankəndi şəhəri ərazisindən 38 avtomat silahı, 2 pulemyot, 9 tapança, 14 tüfəng, 69 qumbara, 1 qumbaraatan, 61 alışdırıcı, 1 mərmi, 10 mina, 11 kiloqram barıt, 9 gecəgörmə cihazı, 31 süngü-bıçaq, 26 rabitə vasitəsi, 197 patron darağı, 19 min 986 ədəd müxtəlif çaplı patron və digər sursatlar, Xocavənd rayonu ərazisindən 4 avtomat silahı, Füzuli rayonu ərazisindən 2 avtomat silahı, 1 qumbaraatan, 3 pulemyot, 4 mərmi partlayıcısı, 1050 ədəd müxtəlif çaplı patron, Xocalı rayonu ərazisindən 6 avtomat silahı, 1 tapança, 2 tüfəng, 7 qumbara, 5 alışdırıcı, 160 ədəd müxtəlif çaplı patron aşkar edilərək götürülüb.

**XQ**

# Braziliya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

**Hörmətli cənab Prezident,**

San-Paulu ştatında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Braziliya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 10 avqust 2024-cü il**

# Birinci vitse-prezident güləşçi Maqomedxan Maqomedovu təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Paris Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedovla bağlı paylaşım edib.

**Paylaşımda deyilir:**

“Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedovu bürünc medal qazanması münasibətilə təbrik edirəm! İdmançımıza yeni qələbələr və nailiyyətlər arzulayıram!”.




# Mehriban Əliyevanın güləşçi Giorgi Meşvildişviliyə təbriki

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Paris Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edən Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili ilə bağlı paylaşım edib.

**Paylaşımda deyilir:**

“Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili Paris Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır! İdmançımızı təbrik edir, ona yeni qələbələr və nailiyyətlər arzulayıram!”.






# Qafqazın “barıt çəlləyi”ni partlatmaq istəyənlər



(əvvəli 1-ci səhifədə)

Bəli, Cənubi Qafqaz üçün sentyabr ayının xüsusi özəlliyi var. Məhz bu ayda bölgədə reallığın kökündən dəyişdirilməsi əməliyyatına start verilib. Azərbaycanın müzəffər Ordusu 2020-ci ildə törədilmiş növbəti erməni təxribatına cavab olaraq, əks-hücum əməliyyatlarına başlayıb, Ermənistanın 30 ilə yaxın davam etmiş işğalçılığına son qoyub və ölkənin ərazi bütöövlüyünü bərpa edib. Üstündən 3 il keçəndən sonra bölgədə yenə müharibəyə oxşar situasiya yarandı. 44 günlük müharibədə rüsvayçı məğlubiyyətini həzm edə bilməyən Ermənistan hakimiyyəti özündə Azərbaycana qarşı aqressiv və revanşist addımlar atmağa cəsarət tapdı. Bəs, axırı nə oldu?

İndi rəsmi İrəvanın sentyabr ayının gəlişindən qorxmasını başa düşmək olar. Görünən odur ki, Paşinyan hakimiyyəti Azərbaycana qarşı analoji hərbi təxribatlar törətməkdən, Brüsselə, Parisə, Vaşinqtona olan və özünü doğrultmamış ümidlərindən də əl çəkmək fikrində deyil. Kollektiv Qərb, faktiki olaraq, Ermənistanı sülh prosesindən uzaqlaşdırmağa çalışır. Bu, azmış kimi, Ermənistana kənardan intensiv şəkildə silah-sursat, hərbi texnika daşınır. Fərq ondadır ki, bu dəfə Ermənistanın silahlandırılması ilə Rusiya deyil, Fransa, Hindistan, hətta ABŞ məşğuldur. Hayastanı “barıt çəlləyinə” çevirmək istəyənlərin altməqsədləri nədir? Nə qədər pessimist proqnoz olsa da, məgər bunlar Cənubi Qafqazda yeni savaşın ilkin əlamətləri deyilmi? Mövcud geosiyasi durumda bölgədə yeni silahlı münaqişə Brüsselə də sərf edir, Vaşinqtona da. Axı, istənilən xarakterli və miqyaslı hərbi əməliyyatlar onlara bölgəni Rusiyanın nəzarətindən çıxarmaq nöqteyi-nəzərindən əlavə manevr imkanları qazandıracaq. Fransa üçün isə Cənubi Qafqazda baş verəcək yeni müharibə regiona bayrağını sancmaq fürsətini əldə etmək imkanının yaranması demək olar. Bu zaman acı aqibətini yaşamağa məhkum Ermənistanın taleyi nə Parisi düşündürür, nə Vaşinqtonu, nə də digərlərini. Təki Ermənistanın üstündə oturtduqları “barıt çəlləyi” tez partlasın! Onların intizarla gözlədikləri an məhz budur.

* * *

Amma təəssüf ki, o “çəlləyin fitili” daha onların əlində deyil. “Böyük güclər”in bölgə ilə bağlı məkrli planlarını reallaşdırmaq yolunda “ilişdikləri” əsas maneə fitilin əllərində olmamasıdır. Bunun səbəbi nə imiş? Əsas səbəb Azərbaycan Prezidenti İlham Əliyevin onların güman etdiklərindən daha cəsarətli, iradəli və səbirli dövlət xadimi olmasıdır. Mövqe isə dəyişməzdir: əgər, doğrudan da, müharibə istəyirsinizsə, buyurun, bu meydan, bu da şeytan! Artıq dörd il əvvəlkindən daha güclü Azərbaycan Ordusu istənilən xarakterli, həm də genişmiqyasılı hərbi əməliyyatları aparmağa hazır vəziyyətdədir. Zatən, rəsmi Bakı hələlik Ermənistanın lokal səciyyə daşıyan sərhəd təxribatlarına sərt reaksiya verməklə kifayətlənməyi üstün tutur. Və Azərbaycan heç bir halda bölgədə hərbi əməliyyatlara regiondankənar qüvvələrin fitvası və ya istəyi ilə başlamayacaq. Belə bir qərar yalnız yaranmış yeni durumun Azərbaycanın milli maraqları və Ali Baş Komandanın iradəsi ilə üst-üstə düşdüyü anda verilə bilər.

İntəhası, biz müharibə barədə düşünmürük, üzümüzü sülhə tərəf tutub qurucuGuqla, Qarabağımızı bərpa etməklə məşğuluq. Yaxın və uzaq hədəflərimizi də müəyyən etmişik. Azərbaycanı qarşıda Türk dünyasına ümumi inteqrasiyası, Türk Dövlətləri Təşkilatının maraqlarını regional vəzifələr məcmusu ilə birləşdirmək missiyasını yerinə yetirmək gözləyir. Bundan başqa, TDT-də aparıcı rol oynayan Azərbaycan təşkilatın regional və beynəlxalq əlaqələrini daha faydalı müstəvidə genişləndirmək barədə planlarını cızır. Bu tendensiyanı əlində rəhbər tutan Azərbaycan hər vəchlə “barıt çəlləyi”nin fitilini alışdırmağa can atan bütün güclərin arzularını gözündə qoyacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

Bəli bu “barıt çəlləyi”ni partlatmaq istəyənlər fransızlar, amerikanlar və Avropa İttifaqının bəzi üzvləridir. Onlar aydın görsələr də ki, postmüharibə dövrünün Cənubi Qafqazı, doğrudan da, məntiqi baxımdan düzgün hərəkət etməlidir, bu hərəkətin qarşısını almağa çalışırlar. Belə deyərdim ki, həmin qüvvələr iki ölkəni sülhə aparan yolu minalamaqla məşğuldurlar. Əlbəttə ki, bu, həm təəssüf, həm də təəccüb doğurur. Digər tərəfdən onu da görürük ki, kollektiv Qərb münaqişəli lokal vəziyyətləri makro səviyyəyə çatdırmaq barədə düşünürlər.

Bu gün bütün dünya qlobal müharibənin baş verməməsi barədə düşünür, insanlar bu təhlükənin qarşısını almaqdan ötrü nə etməli olduqları barədə özlərinə sual verirlər. Bunlar isə hətta sülhün qaçılmaz olduğu məqamlarda belə bölgədə dözülməz vəziyyətin yaranmasını hədəfləyirlər. Ermənistan kimi aciz, siyasi iradəsiz bir məmləkəti yanlış yola sürükləyirlər. Bu qüvvələrin niyyəti orada həm revanşizm meyillərini dirçəltmək, həm də erməni ictimaiyyətində yanlış təsəvvür formalaşdırmaqdır. Onların məkrli niyyətlərinin qarşısına bölgə özünün sülh potensialını qoymalıdır. Yəni, Azərbaycan və bizə tərəfdaş ölkələr həmahəng tərzdə bölgədə sülhün üzərində çalışırıq. Ermənistanda isə insanlar oyanışa doğru hərəkət etməlidirlər. Çünki bu olmasa, daim kortəbii şəkildə Qərbin mürtəce qüvvələrinin təsiri altında qalacaqlar.

Burada Prezident İlham Əliyevin çıxışlarından bəzi fraqmentləri yada sala bilərik. Cənab Prezident may ayında Şuşadan bəyan etdi ki, Ermənistan qırmızı xəttləri keçməsin. Əks-təqdirdə xəbərdarlıq etmədən zəruri tədbirləri görəcəyik. Yenə Şuşada Media Forumdakı çıxışında dövlətimizin başçısı ABŞ rəhbərliyinin bu məsələnin həllində məsuliyyətsiz mövqe tutduğunu birmənalı şəkildə bildirdi.

Yəqin onlar Azərbaycanı Ermənistanla səhv salırlar. Bakı hər cəhətdən sülhə hazırdır, digər tərəfdən proseslərin gedişatını təmkinlə izləyib, vaxtında lazımi qərarları qəbul etmək, sülhün təminatı üçün kifayət qədər resursumuz var. Bəli, biz bu prosesdə tək deyilik. Cənab Prezidentin Astanada Mərkəzi Asiya dölətlərinin liderlərinin məşvərət görüşündəki çıxışında da gördük ki, Bakı əməkdaşlığa, inteqrasiyaya və regionda təhlükəsizliyin qorunmasına köklənib. Həmin böyük layihələri reallaşdırmaq üçün müdafiə barədə düşünməliyik. Bəli, sülh və təhlükəsizlik etibarlı şəkildə qorunmalıdır. Bundan ötrü bizim və dostlarımızn güclü orduları var. Odur ki, “barıt çəlləyi”ni alışdırmağa çalışanlar bilsinlər ki, qarşılarında “sülh çəlləyi” durur.

KÖŞƏ

# Azərbaycan barədə qarayaxmaları kim yayır?

**Xarici KİV-lərdə Azərbaycan barədə dezinformasiya xarakterli məlumatların yayılması son həftələr ərzində intensivləşib. Dünən “Iran International” televiziya kanalı və “Kan” agentliyi xəbər yayıb ki, guya, İsrail öz hərbçilərinə Azərbaycan və Gürcüstan ərazisində qalmağı qadağan edib. Bundan 2 gün öncə isə “The Telegraph” nəşri HƏMAS-ın sabiq lideri İsmayıl Haniyənin öldürülməsinə yönəlik ehtimallar sırasında Azərbaycanın da adını hallandırıb. Prezident Məsud Pezeşkianın bu kontekstdə Azərbaycan barədə təhlükəli fikirlər səsləndirməsi barədə mənbəyi məlum olmayan “sitatlar”paylaşıb.**



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

Medianın İnkişafı Agentliyi açıqlama yayaraq, bu faktları pisləyib. Xarici ölkələrin media resurslarında yayılmış son məlumatları həqiqəti əks etdirməyən informasiyalar kimi xarakterizə edib. “Iran International”, “The Telegraph” və “Kan” agentliyinin Azərbaycan barədə yaydıqları fikirlərin beynəlxalq jurnalistika standartları ilə bir araya sığmadığını, manipulyasiya xarakterli olduğunu, yerli və beynəlxalq ictimai rəyin çaşdırılmağa yönəldiyini elan edib.

Bəllidir ki, Azərbaycan ərazisində hər hansı bir xarici dövlətin hərbi kontingenti mövcud deyil. Bu məzmunda dezinformasiyalar hələ 44 günlük Vətən müharibəsi dövründə gündəmə gətirilmiş və tutarlı faktlarla təkzib edilmişdi. Həmin tezisi mediaya gətirənlər bircə fakt, hansisa sübut tapmayaraq öz iddialarını geri götürmüşdülər. İndi isə yenidən aktivləşərək, fərqli bir formada təzahür edirlər.

Bu məqamda təbii sual yaranır: Azərbaycan barədə həqiqəti əks etdirməyən belə məlumatları kim və nə məqsədlə yayır? Sual mürəkkəb görünsə də, cavabı sadədir. Prezident İlham Əliyev II Şuşa Qlobal Media Forumunda vurğulamışdı ki, Cənubi Qafqazda tarixi transformasiya, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar zəifləyir, yeni əməkdaşlıq formatları meydana gəlir. Bu tarixi gedişata müdaxilə etmək, prosesi öz maraqlarına uyğun şəkildə dəyişmək istəyən güc mərkəzləri vardır. Regiona yönəlik ekspansiya siyasətini gücləndirən mərkəzlər müxtəlif üsullardan istifadə edərək hadisələrin təbii gedişatını dəyişmək istəyirlər.

Ermənistanda və Gürcüstanda baş verən son proseslər Prezidentin bu fikirlərini bir daha təsdiqləyir və onların aktuallığını göstərir. Amma dövlətimizin başçısı onu da vurğulamışdı ki, indi Cənubi Qafqazda müharibədən qalib çıxmış, ərazi bütövlüyünü və suverenliyini təmin etmiş qüdrətli Azərbaycan dövləti vardır. Bu gün Azərbaycan təkcə öz ərazisini və suverenliyini deyil, həm də, ümumilikdə, regionu kənar müdaxilələrdən qorumaq gücündədir.

2020-ci ildən etibarən Azərbaycanın gerçəkləşdirdiyi proseslər, hərbi və diplomatik müstəvidə qazandığı nailiyyətlər bu qənaəti daha da gücləndirir. Azərbaycanın regionda əsas söz sahibi olmasının göstəricilərindən biri insan resursları və iqtisadi inkişafdırsa, digəri də güclü ordusudur. Azərbaycan Ordusu Cənubu Qafqazın ən güclü ordusudur. Mərkəzi ofisi ABŞ-da yerləşən “Global Fire Power” təşkilatı qeyd edir ki, Azərbaycan Silahlı Qüvvələri nəinki Cənubi Qafqazın, həm də dünyanın ən güclü orduları sırasında yer alır. Təşkilat 2024-cü il üzrə hesabatını hərbi bölmələrin sayı, maliyyə, logistika imkanları və digər 60 göstəricisi əsasında hazırlayıb. Həmin siyahıda Azərbaycan 59-cu, Gürcüstan 84-cü, Ermənistan isə 102-ci yerdə qərarlaşıb. Bu göstərici ilə ölkəmiz ordusunun gücünə görə həm Ermənistandan və Gürcüstandan, həm də dünyanın bir sıra tanınmış dövlətlərindən öndədir.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Ordusu digər ölkələrlə müqayisədə təkcə müasir texniki təminatı, say və logistik imkanları ilə deyil, həm də praktiki döyüş bacarıqları ilə fərqlənir. Təsadüfi deyil ki, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsini ordumuz ən modern yeniliklərlə həyata keçirib. Minimal itkilər, sürətli hərəkət və böyük qələbələr Vətən müharibəsini xarakterizə edən əsas əlamətlərdir. Azərbaycan Silahlı Qüvvələri 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirlərini də eyni səriştə ilə başa vurdu. Sürətli manevrlər, güclü həmlələr qarşısında separatçılar və onların havadarları cəmi bir sutka ərzində darmadağın edildilər.

Azərbaycan Vətən müharibəsi və antiterror tədbirləri zamanı təkcə döyüş meydanında deyil, həm də diplomatik müstəvidə və informasiya savaşında ciddi nailiyyətlər qazanıb. Məsələn, 44 günlük müharibə dönəmində və ondan sonra Fransa Azərbaycana qarşı diplomatik savaş açıb, təsir dairəsində olan KİV qurumlarını, transmilli media subyektlərini qarayaxma kampaniyasına cəlb edib. Bu vasitə ilə qlobal ictimai rəyi Azərbaycana qarşı yönəltməyə çalışıb. Fransa, təmsil olunduğu beynəlxalq platformalarda da qondarma müzakirələr açıb, ölkəmizin adına kölgə yaxmaq istəyib.

Amma Azərbaycan bu və buna bənzər bütün fitnələri iflasa uğratdı. Uzun müddət ərzində aparılan müstəqil və balanslı xarici siyasət kursu öz bəhrəsini verdi. Ölkəmiz dünyanın bütün qitələrində, fərqli qütblərdə yerləşən tərəqqipərvər dövlətlərdən dəstək alaraq haqq işini tamamlaya bildi.

Son 4 ildə baş verən proseslər Azərbaycanın adını region hüdudlarından kənara çıxan, “orta güc” kateqoriyasına daxil olan ölkə kimi tanıdıb. Çox mühüm geopolitik proseslər mövcuddur ki, Azərbaycan orada açar nöqtələrdən biridir. Geopolitik güc mərkəzlərinin Cənubi Qafqaz və ətraf regionlar üzrə layihələrinin taleyi həm də ölkəmizin iradəsindən asılıdır. Azərbaycan iqtidarı bu amilləri üstünlüyə çevirə bilir.

Görünən budur ki, bəlli mərkəzlər Azərbaycanın nailiyyətlərini hələ də həzm edə bilmirlər. Bu gün də saxta, süni informasiyalar yaymaqla, ölkəmizin adına qara yaxmağa çalışırlar. Amma yuxarıda təsvir etdiklərimiz deməyə əsas yaradır ki, onların səyləri əbəsdir, bütün planları iflasa məhkumdur.

# Baqrat Qalstanyanın irqçi çağırışı bəşəri cinayətdir

**Ermənistanda özünü “Müqəddəs mübarizə” hərəkatının lideri kimi təqdim edən arxiyepiskop Baqrat Qalstanyan qərbi azərbaycanlılar və onların geri qayıdış hüququ ilə bağlı irqçi və ksenofob mövqedən çıxış edən bəyanat verib. Din xadimi, yoxsa siyasətçi olduğu anlaşılmayan bu diletant, reallıqdan uzaq şəxs soydaşlarımızla bağlı radikal xarakterli fikirlər səsləndirib. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilir.**

Sənəddə Baqrat Qalstanyanın bu bəyanatı qınanılır, arxiyepiskop irqçi yanaşmadan çəkinməyə çağrılır. “Bir din xadimi olaraq sülhü, ədaləti, barışığı təmsil və təbliğ etmək əvəzinə arxiyepiskopun bu cür şovinist mövqedən çıxış etməsi erməni Qriqoryan kilsəsində və cəmiyyətində bu cür irqçi yanaşmaların hakim olduğunu göstərir”, – deyə bəyanatda vurğulanıb.

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

***XQ***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Avqustun 12-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə öz xarici partnyorları ilə birgə “exit-poll” keçirmək niyyəti ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası və “Tərəqqi” Sosial Tədqiqatlar İctimai Birliyi tərəfindən Mərkəzi Seçki Komissiyasına ünvanlanan müraciətlərə baxılıb. Komissiya üzvləri və iclas iştirakçıları bu barədə ətraflı məlumatlandırıldıqdan və aparılan geniş müzakirələrdən sonra sözügedən qurumların müraciətlərinin təmin edilməsinə, Milli Məclisə seçkilərdə “exit-poll” keçirmək üçün qeydə alınmalarına qərar verilib.

İclasda qarşıdan gələn seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə də baxılıb. Beynəlxalq müşahidə missiyası təmsilçiləri, media mənsubları və maraqlı subyektlərin bilavasitə iştirakı ilə Komissiya üzvlərinin geniş müzakirəsi nəticəsində vətəndaşların seçki hüquqlarının daha səmərəli və effektiv təmin olunması üçün hərtərəfli və obyektiv araşdırılan müraciətlərlə bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq qərarlar qəbul edilib.

İclasın sonunda, həmçinin cari məsələlərə baxılıb.

***XQ***

# İranın "qırmızı xətt"i

## Sobhani və Varameneninin dediklərinə sözardı

(əvvəli 1-ci səhifədə)



Deməli, İranın Ermənistandakı səfiri Mehdi Sobhani bildirib ki, Cənubi Qafqazda kommunikasiyaların açılması məsələsində Ermənistanın sərhədləri nəzərə alınmalıdır. "Bizim blokadanın aradan qaldırılması ilə bağlı mövqeyimiz çox aydındır. Onun aradan qaldırılmasının tərəfdarıyıq. Amma bu, Ermənistanın suverenliyi ilə olmalıdır. Aydındır ki, blokadanın aradan qaldırılması baş versə, nəticədə nəqliyyat əlaqələri güclənəcək. Ancaq bununla bağlı qarşılıqlı anlaşma olmalıdır".

Qeyd edək ki, M.Sobhaninin fikirlərini bir qədər fərqli formada İranın Qafandakı konsulu Morteza Abedi Varameni də təkrarlayıb. "Strategiya çox aydındır. İki-üç həftə əvvəl cənab Paşinyan İrana səfər etdi. İranın ruhani lideri ilə görüşdü və bu mövzu yenidən müzakirə olundu. İran bir daha öz strategiyasını vurğuladı və bütün sözlərimiz həmişə eynidir", – deyən konsul da İranın Zəngəzurla bağlı "qırmızı xət"lərinin dəyişməz qaldığını bir daha təsdiqlədi.

Bəli, İran rəsmilərinin, demək olar, eyni anda oxşar bəyanatlar səsləndirmələri düşündürücüdür. Həm də ona görə düşündürücüdür ki, Azərbaycan və Ermənistan nəqliyyat kommunikasiyalarının açılmasını sülh paketindən kənarda saxlamaq barədə razılığa gəliblər. Yəni, belə qənaətə gəlmək mümkündür ki, əvvəl barış sazişi imzalanacaq, sonra tərəflər haqqında söz açılan məsələni müzakirəyə çıxaracaqlar. Xaricdəki müəyyən ekspert dairələrinin açıqlamalarından əldə olunan qənaət isə bunu deməyə əsas verir ki, kollektiv Qərb belə qoyuluşla razı deyil və razılığın olmayacağı proqnozlaşdırılırdı. İzah edək nəyə görə?

ABŞ Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn bu ilin iyununda Ermənistana, ardınca Azərbaycana səfərləri kontekstində bildirmişdi ki, Bakı və İrəvan arasındakı sülh sazişi nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması məntiqini əsas götürməlidir. Köməkçi məsələni Cənubi Qafqaz regionunun Rusiyadan asılılığının aradan qaldırılmasına töhfə kimi qiymətləndirmişdi. O, eyni zamanda, ölkəsinin Moskvanı bölgədən uzaqlaşdırmaq niyyətini də ortaya qoymuşdu.

C.O'Braynın fikirləri onu deməyə əsas verirdi ki, ABŞ Azərbaycan–Ermənistan sülh sazişini geosiyasi rəqabət aləti qismində təsəvvürə gətirir. Buna görə də Bakı və İrəvan nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasını barış müqaviləsindən sonraya saxlamaq barədə razılığa gəldikdə, aydın idi ki, məsələ Qərb üçün sərfəli sayılmayacaq. Xaricdəki ekspert dairələrinin reaksiyası da deyimin təsdiqi idi. Həmin dairələr mövzunu gündəmdə saxlamaq üçün müxtəlif mülahizələr irəli sürdülər. Hiss olunur ki, onlar Ermənistanın ərazi bütövlüyü və suverenliyi ritorikasını, bir növ, ilahiləşdirməklə, habelə İrəvanın irəli sürdüyü "Dünyanın kəsişməsi" ideyasına dəstəklərini ifadə etməklə, Paşinyan administrasiyasının mövqeyinə təsir göstərmək niyyətindədirlər. Çalışırlar ki, nəqliyyat kommunikasiyalarının açılması gündəmdə qalsın. Daha doğrusu, mövcud xüsusda Ermənistanda müqavimət güclənsin. Beləliklə, bu istiqamətdə Bakıya beynəlxalq təzyiq də aktuallığını qorusun. İndi İran rəsmilərinin, xüsusən İrəvandakı səfir M.Sobhaninin açıqlamasından qəribə nəticə hasil olur. Yəni, İran Ermənistan məsələsində Qərblə əlbirdirmi?

Yaşadığımız Cənubi Qafqaz regionunda mürəkkəb siyasi semantikanın mövcudluğu reallığını nəzərə alsaq, Tehranın Qərblə eyni mövqeni bölüşməsində təəccüblü bir şey yoxdur. Amma ilk baxışdan. Çünki hadisələrin sonrakı axarının İran üçün əverişli olacağı real görünmür. Axı həmin Qərb idi ki, ötən il C.O'Braynın şəxsində Azərbaycanın, Ermənistanın şərtləri qəbul etməyəcəyi təqdirdə, Naxçıvana yol xüsusunda İran ərazisini əsas götürməsini süngü ilə qarşılamışdı. Dövlət Departamentinin rəsmisi Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında keçirilmiş dinləmələr zamanı Naxçıvana yolun mütləq qaydada Ermənistandan keçməli olduğunu vurğulamış və məsələyə anti-İran ovqatı gətirmişdi. Hiss olunmuşdu ki, Vaşinqton, heç bir halda, Tehranın qlobal nəqliyyat dəhlizində yer alaraq, mənfəət götürməsini istəmir. Görəsən, Qərbin, xüsusən də ABŞ-nin mövqeyində hansısa dəyişikliyin baş verməsinə dair təminat varmı? Ümumən, belə bir təminata etibar etmək olarmı? Kim deyə bilər ki, Qərb İranı parçalamaq niyyətindən geri duracaq? Sual ritorikdir, çünki cavabı bəllidir. Qərb dünyası İrana düşmən münasibətdədir və Rusiya ilə yanaşı, onu da məhv etmək planlarından bir an belə geri durmayacaq.

Ermənistanın isə Qərbin mənafeləri naminə hərəkət etdiyi gün kimi aydındır. Rəsmi İrəvan İranın da dəstəklədiyi "region ölkələri üçündür" şüarını inkar yolu tutur. Onun bütün hərəkət və davranışlarının qayəsində məhz bu istək dayanır. Ermənistan hazırda Qərbin anti-Rusiya, həm də anti-İran cəbhəsinin aktoru rolunda çıxış edir və mövcud istiqamətdəki sifarişləri canla-başla yerinə yetirir. Belə olan halda da İslam Respublikasının Ermənistanın ərazi bütövlüyü və suverenliyi klişesini əsas götürməsi anlaşılan deyil, hətta gülməlidir. Tehranın hansısa təminatı varmı ki, İrəvan gələcəkdə Qərbin təhriki ilə ona əks mövqe tutmayacaq? Görəsən, İran Ermənistan ərazisindən istifadə etdiyi ənənəvi kommunikasiya xəttini qoruyub saxlaya biləcəyinə əmindirmi?

Digər tərəfdən, Azərbaycan Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə qarşı çıxmır. Ölkəmiz, sadəcə, İrəvanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsini tələb edir. O bəyanatı ki, 44 günlük müharibənin Ermənistan üçün acınacaqlı sayılacaq yekunlarını təsdiqləmişdi. Deməli, İrəvan müharibə məğlubu kimi davranmalıdır. O, xaricdəki havadarlarının köməyilə bundan boyun qaçırırsa, "Dünyanın kəsişməsi" və sair bu sayaq ideyalarla Azərbaycana qarşı çıxırsa, İran durumun mürəkkəbliyini nəzərə almalıdır. Nəzərə almalıdır ki, Bakı otuz ilə yaxın müddətdə Qərbin anti-İran köklənişində yer almadı. Ən çətin durumlarda İranla tarixi yaxınlığı prioritet saydı. Ermənistan bunu edərdimi? Əsla yox!

İran onu da nəzərə almalıdır ki, Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslanmalıdır. Yəni, yolda Ermənistanın hansısa gömrük və sərhəd nəzarəti tətbiq edilə bilməz. Çünki buna imkan vermək erməni avantürizminə dividend qazandırmaq deməkdir. O avantürizm üçün ki, qonşularına qarşı ərazi iddiası məntiqini əsas götürür və belə yanaşma regional təhlükəsizliyə ciddi təhdiddir. Bu təhdid olacağı təqdirdə, İranın bir dövlət kimi üstündə əsdiyi "qırmızı xət"lərin zərər görməyəcəyini söyləmək mümkünsüzdür.

Deməli, rəsmi Tehran istər M.Sobhaninin, istərsə də konsul Morteza Abedi Varameninin səsləndirdiyi fikirlərin ciddilik amplitudasına aydınlıq gətirməlidir. İran hansı cəbhədə yer aldığını qəti şəkildə müəyyənləşdirməlidir. Özü də bunu nə qədər tez etsə, bir o qədər yaxşıdır. İndiki vəziyyətdə adları çəkilən şəxslərin Ermənistanı gəlişigözəl ifadələrə qonaq etmələri, Paşinyan və komandasının illüziya bataqlığındakı yerini bir qədər də möhkəmləndirir. Yəni, Ermənistan heç bir halda blokadadan qurtulmur. Üstəlik, Cənubi Qafqazda dayanıqlı və etibarlı sülh mühitinin formalaşmasına əngəl yaranır.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Mina terroru Naxçıvandan da yan keçmir

(əvvəli 1-ci səhifədə)






Naxçıvan Muxtar Respublika Xəstəxanasının Reanimasiya şöbəsinin şöbə müdiri Azər Məmmədov bildirib ki, 19 yaşlı gəncin vəziyyəti ağırdır: "Avqustun 11-də, saat 21:20-də Şərur rayonu Mahmudkənd kənd sakini Bəxtiyar Sultanov bədən nahiyəsinin müxtəlif nahiyələrində xəsarətlərlə təcili tibbi yardım şöbəsinə daxil olub. Vəziyyəti hazırda ağır qiymətləndirilərək reanimasiya şöbəsinə yerləşdirilib. Hazırkı diaqnozu – açıq kəllə-beyin travması, qansızma, baş-beyinin ağır dərəcədə əzilməsi ilə reanimasiya şöbəsində müalicəsi davam etdirilir. Hazırda vəziyyəti ağırdır".

Dünən, həmçinin işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik (05.08.2024–11.08.2024) məlumat açıqlanıb. ANAMA-dan verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 163 piyada əleyhinə mina, 44 tank əleyhinə mina, 10040 partlamamış hərbi sursat aşkarlanıb. Bildirilib ki, 1224,3 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Göründüyü kimi, mina partlayışı hadisələri təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının işğaldan azad edilən ərazilərində deyil, eyni zamanda, bu ilin aprel ayında qəbul edilmiş razılaşma əsasında ölkəmizə geri qaytarılmış Qazax rayonunun işğaldan azad edilmiş kəndlərində və Naxçıvan MR-də də yaşanır. Bu isə mina təhlükəsinin miqyasının nə qədər böyük olduğu barədə aydın təsəvvür yaradır.

Məsələ ilə əlaqədar "XQ"-yə açıqlama verən **"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri, ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanov** bildirdi ki, onlar ötən il Kanadanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə bir layihə həyata keçiriblər. Layihə çərçivəsində Naxçıvan MR-də də mina problemlərini araşdırıblar. Bu məqsədlə ötən ilin sonlarında Naxçıvana səfər ediblər.

Onun sözlərinə görə, son 20-25 il ərzində muxtar respublika ilə bağlı belə bir tədqiqat aparılmamışdı: "Biz Naxçıvan MR-in bütün ərazisində bu problemi araşdırdıq. Ermənistanla, həmçinin İran və



Türkiyə ilə sərhəddə olan vəziyyəti monitorinq etdik. Babək, Sədərək, Şərur, Culfa və Ordubad rayonlarının rəhbərliyi ilə görüşdük. Ermənistanla bu və ya digər formada sərhəddə yerləşən Babək rayonunun Aşağı və Yuxarı Buzqov, Şərur rayonunun Şahbulaq, Aşağı və Yuxarı Yaycı, Sədərək rayonunun Heydərabad qəsəbəsində, Culfa rayonunun Ərəfsə, Ləkətağ kəndlərində olduq. Kəndlərin rəhbərləri, ictimaiyyət nümayəndələri ilə, müəllimlərlə görüşdük. Ətraflı məlumatlar aldıq. Birbaşa Ermənistanla həmsərhəd olan Ordubad rayonunun Kotam və Kilit kəndlərində məktəblərdə həm müəllimlər, həm də şagirdlər üçün mina əleyhinə maarifləndirici tədbirlər keçirdik".

Müsahibimiz qeyd etdi ki, Naxçıvan ərazisindəki mina problemi birbaşa Ermənistanla uzun illər mövcud olmuş münaqişə səbəbindəndir. Onun sözlərinə görə, muxtar respublikada apardıqları monitorinqlər, yerli əhalidən alınan məlumatlar göstərib ki, İran və Türkiyə ilə sərhəddə nə insanlar, nə də ev və çöl heyvanları arasında mina partlayışlarına rast gəlinməyib: "Amma Ermənistanla sərhədlə bağlı bunu demək mümkün deyil. Ermənistanla sərhəddə ara-sıra partlayış halları olub. Həm ev, həm də çöl heyvanları minaya düşüblər. 2021-ci il yanvarın 4-də isə Şərur rayonunun Günnüt kəndi ərazisində mina partlayışı baş verib. Nəticədə bir mülki vətəndaş yaralanmışdı. Mən həmin şəxsi tapdım, onunla görüşdüm. Minaya düşmə səbəblərini öyrəndim. Bundan başqa həmin kəndin icma rəhbərləri ilə də görüşdük və onlarla da müəyyən müzakirələr apardıq. Avqustun 11-də baş verən də növbəti hadisədir və bir daha göstərir ki, Ermənistanla sərhəddə mina problemləri var. Bu da az öncə qeyd etdiyim kimi sırf Ermənistanla uzun illər mövcud olmuş münaqişə səbəbindən, birbaşa həmin münaqişə ilə əlaqədar olan məsələdir".

H.Səfixanov Azərbaycan–Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın iclasında qəbul edilmiş razılaşma əsasında ölkəmizə geri qaytarılmış Qazax rayonunun Qızılhacılı kəndində bir müddət öncə – avqust ayının 2-də baş vermiş mina partlayışı ilə bağlı da danışdı. Bildirdi ki, onlar layihə çərçivəsində bütün dövlət sərhədləri boyunca monitorinq aparıblar. Ermənistanla həmsərhəd olan Qazax, Tovuz, Ağstafa, Gədəbəy, Daşkəsən rayonlarında olublar. Bu rayonlarda da yerli icmalarla görüşlər keçiriblər. Ermənistanla Azərbaycan arasında şərti sərhəd xəttinin ümumi uzunluğu təxminən 1007 kilometrdir. Hazırda Qazax rayonu istiqamətində müəyyən delimitasiya və demarkasiya işləri aparılır. Ancaq digər ərazilərdə bu hələ baş verməyib: "Adları çəkilən rayonlarda apardığımız monitorinqlər nəticəsində məlum oldu ki, şərti sərhədin hər iki tərəfi minalanıb. Sakinlərin bizə bildirdiyinə görə, vaxtaşırı hər iki tərəfdən mina partlayışları baş verir. Ev və çöl heyvanları, bəzən də insanlar partlayışlara məruz qalırlar. Biz sərhədin Azərbaycan tərəfində İkinci Qarabağ müharibəsindən sonra baş vermiş mina partlayışlarını qeydə alırıq. 2021-ci il mayın 11-də Gədəbəy rayonunun Əyridərə kəndi ərazisində iki mülki şəxs mina partlayışı nəticəsində yaralanıb. 2021-ci il 30 iyul və 29 avqust tarixlərində Daşkəsən rayonunun Alaxançallı kəndinin ərazisində də baş vermiş iki mina partlayışı zamanı biri 11 yaşlı uşaq olmaqla iki nəfər yerli sakin həlak olmuş, bir nəfər yaralanmışdı. 2021-ci il sentyabrın 22-də Qazax rayonunun Bala Cəfərli kəndində yerli sakin mina partlayışı zamanı həlak olub. 2022-ci il aprelin 23-də yenə Qazax rayonunun Quşçu Ayrım kəndində 12 və 14 yaşlı bacı-qardaş partlamamış hərbi sursatın partlaması nəticəsində yaralanıblar. Mən həmin uşaqlarla onların valideynlərinin iştirakı ilə görüşmüşəm. 2023-cü il yanvarın 22-də Tovuz rayonunun Əlibəyli kənd sakinləri olan iki qadın öz həyətlərində yuxa bişirərkən partlamamış hərbi sursatın partlaması nəticəsində ağır qəlpə yaraları alıb. ruz qalaraq yaralanıblar. 2023-cü il mayın 27-də yenə də Əlibəyli kəndində 75 yaşlı sakin həyətyanı sahəsində mal otararkən minaya düşmüş, bir ayağı amputasiya edilmişdi".

Belə hadisələrin vaxtaşırı baş verdiyini qeyd edən H.Səfixanov mina və partlamamış hərbi sursat probleminin 3-5 günlük problem olmadığını, bunun uzun zamanımızı, maliyyə vəsaitimizi alacağını vurğuladı. Qeyd etdi ki, buna görə də həm həmin ərazilərdə yaşayan insanlar, həm də işğaldan azad olunmuş ərazilərdə məskunlaşan, orada işləyən insanlar maarifləndirmə tədbirlərində verilən təlimatlara ciddi əməl etməlidirlər: "Biz bunu hər kəslə görüşdə dönə-dönə bildiririk. Çünki başqa çıxış yolumuz da yoxdur. Rəsmi məlumatlarda qeyd edilir ki, mina və partlamamış hərbi sursat probleminin aradan qaldırılması üçün bizim 25 il vaxt lazımdır. Qüvvələr artırılmaqla bu müddət azaldıla bilər. Amma istənilən halda uzun müddət vaxtımızı alacaq".

Müsahibimiz sonda bir daha bildirdi ki, buna görə də insanlar maarifləndirmə tədbirlərinə ciddi yanaşmalı və mina qurbanlarının sayını minimuma endirməlidir.

***Səxavət HƏMİD***
***XQ***



# Milli Məclisə seçkilərə 18 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



## Müşahidəçilərə bunları etmək qadağandır

**Mərkəzi Seçki Komissiyasının iclasında Milli Məclisə seçkilərlə əlaqədar 46 ölkə və 29 qurumdan ümumilikdə 267 beynəlxalq müşahidəçinin qeydə alındığı bildirilib.**



Həmçinin bildirilib ki, seçkilərlə əlaqədar 46 min 807 yerli müşahidəçi qeydiyyatdan keçib. Bu müşahidəçilərdən 5715 nəfəri MSK-da, 41 min 092 nəfəri isə dairə seçki komissiyalarında qeydə alınıb.

Bəs, müşahidəçilərə seçki prosesi zamanı hansı hərəkətlər qadağan edilib?

Seçki Məcəlləsinə görə:

– seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;

– seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;

– seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;

– seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;

– seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;

– seçicilər arasında təşviqat aparmaq;

– bu və ya digər namizədin, siyasi partiyanın, referenduma çıxarılan sualın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;

– müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;

– seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla);

– Seçki Məcəlləsinin 42.3-cü maddəsində göstərilən tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər.

Müşahidəçilər müşahidənin yekunlarına dair rəylərini mərkəzi, dairə və ya məntəqə seçki komissiyasının sədrinə təqdim etdikdə həmin rəy səsvermənin nəticələri və ya seçkilərin yekunları haqqında protokola əlavə olunmalıdır.

## Xaçmazlılar seçkilərə mütəşəkkil hazırlaşırlar

**Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib.**



"Seçki 2024" Müstəqil Media Mərkəzinin verdiyi xəbərə görə, avqustun 12-dən başlayaraq dörd gün ərzində 57 saylı Xaçmaz şəhər seçki dairəsi üzrə məntəqə seçki komissiyalarının 300-ə yaxın üzvü treninqlərə cəlb olunub.

57 saylı Xaçmaz şəhər dairə seçki komissiyasının sədri Bəhram Ömərov bildirib ki, Milli Məclis seçkilərin yüksək səviyyədə keçirilməsində treninqlər əhəmiyyətli rola malikdir.

Treninqlər MSK-nın "Treninq qrupu" tərəfindən hazırlanan cədvələ əsasən, təxminən 40 nəfərədək aşağı seçki komissiyası üzvünün iştirakı ilə qruplar şəklində keçirilir. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün MSK tərəfindən hazırlanmış "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələrinə dair protokol nümunəsi, bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Treninqlər, həmçinin şimal bölgəsində olan 55 saylı Siyəzən-Quba-Xızı, 56 saylı Şabran-Xaçmaz, 58 saylı Xaçmaz kənd, 59 saylı Quba, 60 saylı Quba-Qusar və 61 saylı Qusar seçki dairələri üzrə də təşkil olunub. Qeyd edək ki, treninq layihəsi, ümumilikdə, 40 minə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir.

## Metyu Brayza: Azərbaycanın qlobal nüfuzu daha da artacaq

**"Ötən ilin sentyabrında Azərbaycan suverenliyini tam bərpa etdi. Sürətli və uğurlu antiterror tədbirlərini həyata keçirməklə Azərbaycan özünün ərazi bütövlüyünə qarşı davamlı təhlükə yaradan amilləri aradan qaldırdı. Sözsüz ki, bu amil Azərbaycanda keçiriləcək parlament seçkilərinin də əhəmiyyətini xeyli yüksəltdi".**



Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Ceymstaun Fondunun İdarə Heyətinin üzvü, beynəlxalq ekspert Metyu Brayza deyib.

Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərin ilk dəfə Azərbaycanın bütün ərazilərində baş tutacağını xüsusi vurğulayan beynəlxalq ekspert onu da bildirib ki, seçkilər hər bir ölkənin demokratik inkişafı baxımından vacibdir, bəzi hallarda isə regional təsir imkanına malikdir.

M.Brayza daha sonra COP29 ərəfəsində keçiriləcək seçkilərin Azərbaycanın qlobal nüfuzunu daha da gücləndirəcəyini və bu prosesi alqışladığını bildirib.



## Naxçıvanda maarifləndirmə tədbiri

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) və Mərkəzi Seçki Komissiyasının birgə təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində "Vətəndaşların seçki hüququnun təmin olunması" mövzusunda "dəyirmi masa" keçirilib.**

Naxçıvan MR İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Günay Rzayeva tədbirdə çıxış edərək müvəkkil təsisatı tərəfindən muxtar respublikada vətəndaşların seçki hüququnun müdafiəsi və təmin edilməsi ilə bağlı vəziyyətin öyrənilməsi barədə, eləcə də müvafiq dövlət qurumları ilə birgə maarifləndirmə tədbirlərinin təşkili haqqında məlumat verib.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında vətəndaş və siyasi hüquqların daha səmərəli təminatı və müdafiəsi sahəsində ardıcıl işlərin görüldüyü, seçki hüquqlarının təminatının daim diqqətdə saxlanıldığı və seçki qanunvericiliyi, seçki prosedurları barəsində məlumat verib.

MSK üzvü Nizami Nadirxanlı çıxış edərək parlament seçkiləri ərəfəsində komissiya tərəfindən görülən işlər və həyata keçiriləcək tədbirlər barədə geniş məlumat verib.

Sonda mövzu ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## "Xankəndili kimi qürur duyuram"

**"Son illərdə Azərbaycanda inanılmaz çətin olan böyük hadisələr baş verir. Belə hadisələrdən birini indi yaşamaqdayıq. Milli Məclisə seçkilərdə Xankəndidə səsvermənin olacağını düşünəndə çox həyəcanlanıram". Bu sözləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Xalq artisti Fəxrəddin Manafov deyib.**



"Xankəndi mənim vətənimdir, orada doğulmuşam. Deməli, tezliklə bizim şəhərdə də yerli əhali seçkilərə qatılacaq, səsverməyə gedəcək, parlamentdəki təmsilçimizi seçəcək. Bunu düşünərkən keçirdiyim hissləri sözlə ifadə etməyə çətinlik çəkirəm. İlk növbədə sonsuz qürur hissi yaşayıram və bütün azərbaycanlılar kimi, mən də çox xoşbəxtəm. Azərbaycanın digər bölgələri kimi işğaldan azad olunmuş torpaqlarımızda da insanlar seçkilərdə iştirak edəcəklər. Gözünüz aydın!– deyə Xalq artisti bildirib.

# Seçki xəbərləri

### Zabuxda hazırlıq prosesi tamamlanıb



"121 saylı Laçın dairə seçki komissiyasının 108 saylı seçki məntəqəsi bütün ləvazimatlarla təchiz edilib". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 121 saylı Laçın DSK-nın 108 saylı seçki məntəqəsinin sədri Mübariz Rüstəmov deyib.

Onun sözlərinə görə, Zabuxda yerləşən məntəqədə səsvermə kabinəsi quraşdırılıb, məntəqə üzvləri və müşahidəçilər üçün yerlər ayrılıb: "Səsvermə kabinəsinə zəruri əşyalar qoyulub. Seçki qanunvericiliyinə, Seçki Məcəlləsinə, eyni zamanda MSK-nın təqvim planına əsasən, proses uğurla davam edir. Bütün prosedurlara tam əməl edərək seçki gününü gözləyirik".

### 24 saylı seçki dairəsində treninqlərə start verilib



Milli Məclis seçkilər ilə əlaqədar avqustun 12-də 24 saylı Nizami birinci seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlərə başlanılıb. "Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, treninqdə çıxış edən dairə seçki komissiyasının sədri Niyazi Nəcəfov seçkilərdə şəffaflığın və aşkarlığın təminatı üçün məntəqə seçki komissiyalarında hər cür şəraitin yaradıldığını, onların zəruri avadanlıqlarla təchiz olunduğunu söyləyib. Təlimlərin məqsədi seçki komissiyaları üzvlərinin məlumatlılığını və peşəkarlığını artırmaqdır.

### "Exit-poll"çuların akkreditasiyası başa çatıb




Milli Məclis seçkilərində "exit-poll" keçirmək niyyətində olan təşkilatların akkreditasiya sənədlərinin qəbul müddəti başa çatıb. "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.1-ci bəndinə əsasən, "exit-poll" keçirmək niyyətində olan təşkilatların MSK-da akkreditasiya üçün sənədləri səsvermə gününə ən azı 20 gün qalanadək qəbul edilir. Milli Məclisə növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına uyğun olaraq, həmin prosedur 2024-cü il avqustun 12-dək olan dövrü əhatə edib.

### 1 saylı Şərur–Sədərək dairəsində 50 məntəqə var



"1 saylı Şərur-Sədərək seçki dairəsi 50 seçki məntəqəsini əhatə edir. Bu seçki məntəqələrinin 40-ı Şərur rayonunun, 10-u isə Sədərək rayonunun inzibati ərazisinə daxildir". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 1 saylı Şərur-Sədərək dairə seçki komissiyasının sədri Niyaz Əsgərov deyib. Seçki məntəqələrinin yerdəyişməsindən danışan komissiya sədri onlara əlavə 4 məntəqənin verildiyini deyib: "Ötən seçkilərdə məntəqələrimizin sayı 46 idisə, artıq 4 yeni məntəqə yaradılmaqla 50-yə çatdırılıb. Yeni məntəqələr Şərurun Kərimbəyli, Alışar, Mahmud və Yengicə kəndlərində yerləşir.

### Namizədlərə bərabər şərait yaradılıb



"64 saylı Salyan seçki dairəsi sentyabrın 1-də keçiriləcək Milli Məclis seçkilərinə tam hazırdır. Dairə üzrə mövcud olan 48 seçki məntəqəsi lazımi avadanlıqla təchiz olunub, veb-kameralar və panduslar quraşdırılıb". Bunu Salyan DSK-nın sədri Fuad Muradov deyib.

O bildirib ki, DSK üzvləri MSK-nın aşağı seçki komissiyaları üçün təşkil etdiyi treninqlərdə iştirak edirlər. Məntəqə seçki komissiyaları üzvlərinin də treninqlərdə iştirakı nəzərdə tutulur. "Dairədə 9 namizəd seçkidə mübarizə aparacaq. Hər bir namizədin təşviqat kampaniyasını aparması üçün bərabər şərait yaradılıb", – DSK sədri bildirib.

## İsrailli jurnalist Milli Məclisə seçkilərin önəmini vurğulayıb

**"Milli Məclisə keçiriləcək seçkilər Azərbaycanın regionda suverenliyini və milli maraqlarını qorumağı bacaran bir dövlət kimi nüfuzunu yeni səviyyəyə qaldıracaq. Ölkənin ərazi bütövlüyünün bərpasından sonra ilk parlament seçkilərinin işğaldan azad edilmiş ərazilərdə də təşkil edilməsi Azərbaycanın bölgədəki və beynəlxalq münasibətlərdəki mövqeyini daha da gücləndirəcək".**



Bu fikirləri "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında israilli jurnalist, siyasi ekspert Mark Qorin deyib. O, parlament seçkilərinin regionda tarixi əhəmiyyət daşıdığını bildirib: "Azərbaycanın növbədənkənar parlament seçkiləri beynəlxalq medianın və müxtəlif yönümlü siyasi qüvvələrin diqqət mərkəzindədir. Milli maraqlarını qorumağı bacaran Azərbaycanın regionda söz sahibi qismində dayanıqlı mövqeyi bu seçkilərə olan marağı daha da artırır. Vurğulamaq istərdim ki, seçkilər azad edilmiş rayonların sakinləri üçün mənəvi əhəmiyyət daşımaqla bərabər, həm də bu ərazilərin iqtisadi və mədəni inkişafının təməlini qoyacaq.

Yeri gəlmişkən, Bakıda doğulmuş və bir vaxtlar burada seçkilərdə iştirak etmiş vətəndaş kimi, bu möhtəşəm hadisə münasibətilə Azərbaycan xalqına öz təbriklərimi çatdırıram".

*Səhifəni hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*

# Beynəlxalq elmi əməkdaşlıq

## Türk Dövlətləri Təşkilatı kontekstində



**I məqalə**

### XXI əsrin elmi

Elmin bəşər tarixində rolu haqqında çox fikir söylənilmişdir. Onun möhtəşəmliyindən tutmuş cəmiyyət üçün faydasından, insana verdiyi mərifət və əxlaqdan xeyli bəhs edilmişdir. Lakin elmin bəşəri əhəmiyyətinin tarixi aspekti də vardır. Yəni hər bir tarixi dönəmdə elmin cəmiyyətdəki rolu yeni məzmun çalarları ala bilir. XXI əsr bu baxımdan daha çox müzakirə mövzusudur. Səbəb nədir?

İndi yaşadığımız yüzildə elmin strateji mövqeyə, ümumiyyətlə, insanın və bəşəriyyətin mövcud ola bilməsi kontekstində çıxdığını alimlər vurğulayırlar. Bu tezisin iki tərəfi vardır. Birincisi, elm o səviyyədə inkişaf etmişdir ki, faktiki olaraq müasir cəmiyyətləri formalaşdırır. İkincisi, elm həm də insan və bütövlükdə bəşəriyyət üçün yeni risklər, təhdidlər, təhlükələr yaradır. Hər iki aspekti əsaslandırmaq üçün arqumentlər irəli sürürlər.

### Elm–zəka çırağı

Bu mövqedə olanlar, ümumiyyətlə, elmin "insan intellektinin bəşəriyyətin yolunu işıqlandırdığı" kimi obrazlı ifadə işlədirlər. Yəni bütün hallarda elmi biliklər insan üçün faydalıdır. Əsas məsələ insanların onlardan necə istifadə etməsi ilə bağlıdır. Elmi biliyi insana faydalı şəkildə istifadə edəndə xeyir verir, fəzilət gətirir. İnsanın niyyəti pis olanda isə elmi biliklər öldürücü silah yaradır və təhlükəyə çevrilir. Bunlar həqiqətdir, tarixin sınaqlarından keçmiş elmi gerçəklikdir.

### Elmi tərəqqinin riskləri

Elmə elə yanaşmalar vardır ki, biliyi cəmiyyət üçün risk və təhlükə qaynağı kimi təqdim edirlər. Məsələn, süni intellektin cəmiyyətdəki roluna neqativ yanaşma da mövcuddur. Hətta hesab edirlər ki, süni intellekt inkişaf etsə, insanları təsiri altına ala bilər. Bəşəriyyəti insan zəkası deyil, "süni zəka" idarə edər. Bu da ümumilikdə insanın dünyadakı yeri və roluna ciddi zərbə olar. Buna görə də bəşəriyyətin indi elmdə "sinqulyar nöqtə" adlandırılan mərhələyə necə gedə biləcəyinin özü aktual elmi problemə çevrilmişdir. Elmi əməkdaşlıq baxımından məsələnin aktuallığı da daha çox bu məqamla bağlıdır.

### "Sinqulyar keçid"

Bu termin riyaziyyatdan götürülmüşdür. Mənası hər hansı göstəricinin minimum itki ilə öncədən müəyyən edilmiş xarakteristikaya maksimum yaxınlaşması ilə bağlıdır. Bu anlayışı daha geniş fəlsəfi, sosioloji, kulturoloji və s. anlamda işlədəndə, adətən, sivilizasiyanın elə strateji vəziyyətə yaxınlaşmasıdır ki, ondan sonra bütövlükdə həyat keyfiyyətcə indi proqnozlaşdırıla bilməyən keyfiyyətlər ala bilər. Bu anlamda sinqulyarlıq bəşəriyyətin sıçrayışla yeni keyfiyyət mərhələsinə keçməsini ifadə edir. Yəni o, müəyyən mənada indi ilə gələcəyin "ayırıcı zonası"dır. Bu zona zamanın və mədəniyyətin fərqli özəllikləri ilə xarakterizə oluna bilər.

### Sinqulyarlıq və elmin əsas vəzifəsi

Bütün bunları görən insan istər-istəməz cavabları da elmi müstəvidə axtarmağa çalışır. Niyə elmi? Çünki əmindir ki, vurğulanan reallıqları elm yaratmışdır və ondan xilası da elmi yanaşma təmin edə bilər. Bu, bir inancdır, mifdir yaxud zəkanın özəlliyidir, demək çətindir. Lakin reallıq ondan ibarətdir ki, hazırda elmi bilik fərdi, toplumsal, bəşəri və Kosmik miqyaslarda, ümumiyyətlə, var olmanın başlıca şərtlərini adekvat müəyyən edən fenomen kimi qəbul edilir. Olsun! Ancaq bu, asan məsələ deyildir. Çünki nəzəriyyədən konkret praktiki fəaliyyətə keçəndə qarşıya çox sayda dilemma çıxır. Aydındır ki, bunu hansısa fərdin təkbaşına və ya toplumun öz daxili imkanları hesabına etməsi mümkün deyildir. Problem qlobaldır və bütövlükdə, bəşəriyyət fəaliyyətdə olmalıdır. Yenə də eyni sual: necə, hansı mexanizmlərlə? Bu sualın arxasında müasir dövrdə bəşəriyyətin mövcudluq forması, təşkilatlanma özəlliyi dayanır.

### Regionlaşmış dünyanın bütövlüyü

Əgər XX əsrin ortalarında hər hansı alimdən dünyanın bütövlüyü haqqında soruşsaydılar, onun regionlara bölündüyünü çətin ki, başlıca faktor kimi gətirərdi. O dövrün alimi əsas olaraq ayrı-ayrı dövlətlərdən və ya məhdud sayda dövlətlər qrupundan, BMT-dən, NATO-dan, sosialist düşərgəsindən bəhs edərdilər. XXI əsrin elm adamı isə dünyanın müxtəlif regionlarından və onların münasibətlərindən daha çox danışar. O cümlədən, Avropa, Yaxın Şərq, Qafqaz, Sakit okean, Mərkəzi Asiya, Cənubi-Şərqi Asiya və s. Daha geniş coğrafiyada Avrasiya, Asiya, Avropa, Afrika və digər bölgülərdən bəhs edilir. Hətta bir sıra nəzəriyyələrdə dünyanı artıq müxtəlif regionların təhlükəsizlik sistemi kimi təsəvvür etməyin daha doğru olduğu qənaəti yer almışdır.

Maraqlıdır ki, bu cür "regionalizm" elmi fəaliyyətə də aid edilməkdədir. Bəşəri sayılan və adətən, dünyaya bütöv aid edilən elmi fəaliyyət hansı mənada regionalizmə uyğun ola bilər? Faktlara baxaq.

### "Horizon 2020": Avropa elm məkanı

Hər şey 2000-ci ildə Lissabon strategiyasını qəbul etməkdən başladı. Avropa İttifaqı (Aİ) qlobal miqyasda rəaqabətədavamlı olmaq və 2010-cu ilə dünyanın ən dinamik iqtisadi infrastrukturunu yaratmaq məqsədini qarşıya qoydu. Tezliklə anladılar ki, buna nail olmağın yolu Aİ üçün elmin səmərəsini artırmaqla bağlıdır. Yəni Avropa özünün sosial-iqtisadi, mənəvi-əxlaqi, mədəni, hərbi və s. inkişafını elmi əsaslara tam oturtmaq yolunu seçdi. Qərara alındı ki, elmə büdcənin ən azı 3 faizi ayrılsın. Bununla Avropa müəyyən mənada elmi "regionlaşdırdı", onu konkret bir təşkilatın tərəqqisinə xidmətə yönəltdi. Buna uyğun olaraq, elmin inkişafı ilə bağlı Aİ 7-ci çərçivə proqramını müəyyən etdi. Lakin 2008-ci il böhranı təşkilatı bu məsələyə yenidən baxmağa məcbur etdi.

Nəticədə 2014-cü ildə Avropanın 8-ci çərçivə proqramı qəbul edildi və bütövlükdə, elmi-texniki və innovasiya siyasəti dövrün çağırışlarına çevik reaksiya vermək kontekstində müəyyən edildi. Bununla Aİ-nin təşkilat kimi öz elmi strategiyası tam formalaşdı və onun maliyyələşməsi 80 milyard dollar həcmində müəyyənləşdi.

Bu prosesdə elmi baxımdan diqqətçəkən məqamlardan biri "Avropa elmi (və ya tədqiqat) məkanı" (European Research Area, ERA) anlayışının daxil edilməsi idi. Yəni faktiki olaraq Avropa elmi öz regional çərçivəsində və xüsusi inkişaf strategiyasına uyğun təşkilatlandırmaq prosesinə üstünlük verdi.

Burada diqqəti çəkən digər məqam elmi araşdırmaları birbaşa Avropa İttifaqının strateji inkişaf kursu kontekstində görmələri ilə əlaqəlidir. Burada cəmiyyətin bütün sferaları üzrə inkişafı vahid elmi proqram çərçivəsində təmin etmək əsas yeri tutur. İndi dillər əzbəri olan "Horizon 2020" elmi proqramı məhz buna xidmət edir. Deməli, Avropada həm konkret strateji inkişaf kursu var, həm də ona nail olmağın elmi konsepsiyası mövcuddur. Bu konsepsiya prinsipcə yeni üzvlərə açıqdır, lakin bütün hallarda Avropanın strateji tərəqqisinə xidmət etməlidir. Proqram birbaşa ona hədəflənmişdir!

### Asiya ölkələri akademiyalarının birliyi

Başqa nümunə 1999-cu ildə yaradılmış Asiya Ölkələri Elmlər Akademiyalarının Assosiasiyasıdır (AASA). Bura bir sıra hallarda "cəmiyyətlərin birliyi"ni də əlavə edirlər və nəticədə AASSA alınır. Bütün hallarda ilk olaraq 12 Asiya ölkəsi (bura Rusiya, Çin, İran və Türkyə də daxildir, AMEA da indi onun üzvü olmuşdur) bu təşkilata üzv olmuşlar və əsas məqsədləri Asiyada elmi cəmiyyətin inkişafı istiqamətində səfərbər etməkdən ibarətdir.

AASSA haqqında yazanda xüsusi vurğulayırlar ki, bu təşkilat Asiya cəmiyyətlərində sosial-iqtisadi, mənəvi-mədəni və s. sferalarda elmi araşdırmaları stimullaşdırır. O cümlədən, üzv ölkələrdə milli innovasiyalarda elm və texnikanın rolunu istiqamətləndirməkdən (koordinasiya etmək mənasında) ibarətdir. Bu sırada tətbiq edilən elmi yeniliklərin üzv ölkələrin cəmiyyətində hansı sosial-mənəvi, mədəni dəyişikliklər etdiyi də araşdırılır.

Nəhayət, AASSA-da bir maraqlı məqam da vardır. Təşkilata üzv dövlətlərin alimlərinin həm üzv dövlətlər səviyyəsində, həm də onların beynəlxalq təşkilatlarla əlaqəsi miqyasında əlaqələrini təmin etmək nəzərdə tutulmuşdur.

Yəni, aydın görünür ki, AASSA regional mahiyyətli elmi qurumdur.

### Türk dünyası elm məkanı

Beləliklə, müasir dünya üçün alimlərin konkret elmi məqsədlərlə regional və regionlararası miqyaslarda müəyyən elmi təşkilatlarda birləşməsi müşahidə edilir. Avropa və Asiya nümunələri bu prosesin konkret təzahürlərini də göz önünə gətirir. Maraqlıdır, eyni məntiqlə Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərinin ortaq elmi fəaliyyəti haqqında danışmaq mümkündürmü? Bunu reallaşdırmağın hansı elmi mexanizmləri mövcuddur? Həmin kontekstdə "Türk dünyası elmi məkanı" anlayışı hansı məzmuna malikdir?

Sualların qoyuluşu nə qədər təbiidirsə, müsbət cavab da bir o qədər qəbuledilləndir! Çünki TDT elə bir dinamik, xoşniyyətli, geniş bir geosiyasi məkanda inkişafa, qarşılıqlı faydalı əməkdaşlığa istiqamətlənmiş təşkilatdır ki, elm onun fəaliyyətində fundamental rol oynamalıdır. TDT üçün fəaliyyətin elmi əsaslar üzərində qurulması tarixi vəzifə olduğu qədər də, məsuliyyətdir.

Bundan başqa, bu təşkilata üzv olan ölkələrin ortaq sosial, tarixi, siyasi, demoqrafik, mədəni, iqtisadi, təhlükəsizlik yapıları mövcuddur. Türkiyəni çıxmaq şərti ilə Mərkəzi Asiya ölkələri və Azərbaycan uzun müddət eyni geosiyasi, sosial-siyasi, mədəni-mənəvi və əxlaqi məkanda olmuşlar. Onların mədəni-tarixi, sosial, psixoloji, mental xüsusiyyətləri ilə yanaşı, siyasi mentalitetləri də oxşardır. Coğrafi olaraq da türk dövlətləri bir-biri ilə qonşudurlar.

Bütün bu yaxınlıqlar onu deməyə əsas verir ki, TDT üçün elmi əməkdaşlıq ən aktual və vacib məsələlərdən biridir. Bununla yanaşı, türk dövlətləri elmi əməkdaşlığı müasir tələblər səviyyəsində rasional əsasda qurmalıdırlar. Strateji məqsəd davamlı olaraq elmi əməkdaşlıqdan təşkilatın hər bir üzvünün fayda götürməsi ilə bağlıdır. Bundan başqa, TDT üzvlərinin elmi əməkdaşlıq modeli başqa ölkələr üçün də açıq olmaldır. Deməli, söhbət faktiki olaraq, Türk dünyası üçün yeni əməkdaşlıq modeli fəlsəfəsinin yaradılmasından gedir.

Bizim üçün çox əhəmiyyətlidir ki, bu prosesdə təşəbbüs Azərbaycanındır. Həmin təşəbbüsün təməlində iki rəsmi sənəd dayanır. Onlardan birincisi, yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri kimi TDT-nin gücləndirilməsi istiqamətinin müəyyən edilməsidir. Digəri isə Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursuna və xarici siyasətin prioritet istiqamətlərinə əsaslanaraq AMEA-nın yeni tarixi mərhələdə prioritetlərindən birini aşağıdakı kimi müəyyən etməsi ilə bağlıdır. AMEA-nın fəaliyyətinin 2-ci üstün istiqaməti belədir: "Dövlət başçımızın andiçmə mərasimində Türk dünyası ilə əlaqələri ölkəmizin ən mühüm prioritetlərindən biri kimi müəyyən etməsi akademiyada da Türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini tələb edir."

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# MEDİA yalan məlumatı yaymamağa çağırır

**Dezinformasiyanın təsiri altında "Iran International" televiziya kanalı, habelə "The Telegraph" nəşri və "Kan" agentliyi Azərbaycan barədə beynəlxalq jurnalistika standartları ilə bir araya sığmayan informasiya manipulyasiyası həyata keçirib, guya, İsrailin öz hərbçilərinə Azərbaycanda qalmağı qadağan etməsi barədə dezinformasiya yayıb. Bu barədə Medianın İnkişafı Agentliyi (MEDİA) bəyanatla çıxış edib.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Açıqlamada bildirilir: "Azərbaycan ərazisində hər hansı bir xarici dövlətin hərbi kontingenti mövcud deyil və bununla bağlı yalan məlumatlara söykənmiş informasiya manipulyasiyalarını ciddi şəkildə qınayırıq. Eyni zamanda, bir daha diqqətə çatdırırıq ki, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq, media məlumatları paylaşarkən hamı tərəfindən qəbul olunmuş jurnalistikanın vahid etik prinsiplərinə əməl etməlidir.

Bu tipli klassik dezinformasiya nümunəsi olan materialların sosial şəbəkə seqmentinə sirayət etdikdən sonra bəzi yerli media subyektlərimiz tərəfindən təkrar tirajlanmasını yolverilməz hesab edirik".

MEDİA bəyanatın davamında cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırır.

***XQ***

# Hərbi Prokurorluğun DSX ilə birgə tədbiri

**Ümummilli lider Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı Hərbi Prokurorluğun və Dövlət Sərhəd Xidmətinin yüksəkrütbəli hərbi qulluqçuları Zaqatala rayonunda şəxsi heyətlə birgə tədbir keçiriblər.**



Hərbi prokurorun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Zaqatala hərbi prokuroru Emin Quliyev və başqaları çıxış edərək ulu öndərin xalqımızın həyatındakı misilsiz xidmətlərindən danışıb, bu mükəmməl siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar. Çıxışçılar, ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından bəhs ediblər.

Sonda ağaclar əkilib.

***XQ***

# Qaxda çətənə kolu aşkarlanıb



**Qax Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi əməliyyat zamanı narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan 55 yaşlı İbrahim Nəsibov saxlanılıb.**

DİN-in Mətbuat xidmətinin Şəki regional qrupundan bildirilib ki, onun Dəymədağlı kəndindən keçən çayın sahilində əkdiyi, çəkisi 130 kiloqram olan 231 ədəd çətənə kolu və süni yaradılmış hovuzlar aşkar olunub. Saxlanılan şəxs narkotik tərkibli bitkiləri may ayından becərdiyini və aqrotexniki qulluq göstərdiyini bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, İ.Nəsibov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Araşdırma davam etdirilir.

***XQ***

# Şərur sakini minaya düşdü

**Avqustun 11-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla təmas xətti olmuş və minalardan təmizlənməmiş "Qanlıgöl" yaylağında mina partlayışı baş verib.**



Hadisə nəticəsində 2005-ci il təvəllüdlü Şərur rayon sakini Bəxtiyar Sultanov müxtəlif dərəcəli xəsarətlər alıb. O, dərhal xəstəxanaya çatdırılaraq zəruri tibbi yardımlar göstərilib, hazırda vəziyyəti ağır olaraq qalır.

Şahbuz Rayon Prokurorluğunun əməkdaşları prokuror-kriminalist və Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin iştirakı ilə hadisə yerində müayinə aparıb, zəruri prosessual hərəkətlər icra edilib.

Faktla bağlı Şahbuz Rayon Prokurorluğunda araşdırma aparılır.

***XQ***

# Logistika Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığımızın önəmli sahəsidir

## Azərbaycan Orta Dəhlizin inkişafına hərtərəfli dəstək verir

**Prezident İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının görüşündəki çıxışında bu ölkələrin qarşılıqlı fəaliyyətində nəqliyyat-tranzit əməkdaşlığını yüksək dəyərləndirib. Dövlətimizin başçısı nitqində Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində həyata keçirilən layihələr, Xəzər dənizində respublikamızın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi kimi tədbirlərin Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırdığını vurğulayıb.**



Ölkə rəhbəri daha sonra ölkəmizin Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirdiyini, artıq Azərbaycan-Qazaxıstan, Azərbaycan-Qırğızıstan və Azərbaycan-Özbəkistan birgə investisiya fondlarının yaradıldığını bildirib və həyata keçirilən "Rəqəmsal ipək yolu" layihəsinin rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəyinə əminliyini diqqətə çatdırıb.

Mərkəzi Asiya ölkələrinin rəhbərləri də Orta Dəhlizin bu dövlətlərin, eləcə də Avropanın inkişafına müsbət təsir göstərdiyini, yük tranzitinin sürətləndirməsində önəmli rol oynadığını bildirirlər. Qırğızıstan mətbuatının yaydığı məlumata görə, ölkənin xarici işlər naziri Jeenbek Kulubayev qurumun 2024-cü ilin birinci yarısında fəaliyyətinin yekunlarına həsr olunmuş mətbuat konfransında bildirib ki, Rusiya dəhlizinin bağlanması ilə yüklərin Avropaya daşınması və tranziti xeyli çətinləşib. Hazırda bütün yüklər cənub dəhlizindən keçir, əvvəlcə İrana, oradan Türkiyəyə, daha sonra Avropaya, əks istiqamətdə isə analoji marşrutla göndərilir. Bununla belə, daşınma prosesini sürətləndirə biləcək alternativ yollar nəzərdən keçirilir. Onlardan biri Qazaxıstan, Türkmənistan, Azərbaycan və Qafqazdan keçən Orta Dəhlizdir.

J.Kulubayevin sözlərinə görə, bu layihələr avropalı tərəfdaşlar və Mərkəzi Asiya ölkələri ilə fəal şəkildə müzakirə olunur: "Tərəfdaşlar regionda daşıma prosesini asanlaşdırmaq və ticarəti artırmaq üçün bu istiqamətdə birgə işləməyə hazırdırlar. Bu, həm də uzaq tərəfdaşlardan investisiya cəlb etməyə imkan verə bilər. Belə bir platformanın istifadəsi həm Mərkəzi Asiya ölkələri, həm də bizim üçün faydalıdır, çünki vahid bazar kimi çıxış etməyə və regionun birgə inkişafına kömək etməyə imkan verir".

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Kazakhstanskaya Pravda" qəzetində dərc olunan məqaləsində regionun planetin ən mühüm nəqliyyat, logistika və tranzit mərkəzlərindən birinə çevrilmək üçün hər cür imkana malik olduğunu, Mərkəzi Asiyanın sürətlə qlobal nəqliyyat kommunikasiyalarının əsas həlqəsinə çevrildiyini bildirib.

Qazaxıstan Prezidenti qeyd edib ki, hazırda region dövlətləri yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün digər perspektivli ideyalar irəli sürür. "Qazaxıstan öz tərəfdaşları ilə birlikdə Orta Dəhlizi fəal şəkildə inkişaf etdirir, bu marşrutla daşımaların həcmini ortamüddətli perspektivdə 5 dəfə artırmağı qarşıya mühüm vəzifə kimi qoyur. Qazaxıstanın dəniz infrastrukturunun – Çin və Mərkəzi Asiya ölkələrindən Cənubi Qafqaza, Türkiyəyə və oradan da Avropaya artan yük həcminin keçdiyi Aktau və Kurık limanlarını sürətlə inkişaf etdirir.

Yeri gəlmişkən, hazırda Orta Dəhlizin inkişafı çərçivəsində Kurık limanında dibdərinləşdirmə işlərinə başlanılıb. Qazaxıstan Nəqliyyat Nazirliyinin yaydığı məlumata görə, gəmiçiliyin təhlükəsizliyini təmin etmək üçün Kurık limanı akvatoriyasında dəniz dibinin 1,5-2 metr dərinləşdirilməsi planlaşdırılıb. Bu məqsədlə Avropanın "Jan de Nul" şirkəti ilə bağlanmış EPC müqaviləsi əsasında xüsusi dibdərinləşdirmə texnikası cəlb edilib. Müqaviləyə dibdərinləşdirmə işlərinin layihələndirilməsindən tutmuş "açar təhvili" üsulu ilə təhvil verilməsi daxil edilib.

Hazırda Kurık limanının ötürmə qabiliyyəti 6 milyon tondur (dəmir yolu terminalı – 4 milyon ton, avtomobil terminalı – 2 milyon ton). Limanda eyni vaxtda 250 yük maşının saxlanması da mümkündür. Analoji işlərin Aktau limanında da aparılacağı nəzərdə tutulur.

"Bu işlər Orta Dəhlizin inkişafı çərçivəsində həyata keçirilən tədbirlər kompleksinin tərkib hissəsidir və bu istiqamətdə yüklərin daşınmasına artan tələbatın ödənilməsinə imkan yaradacaq", – məlumatda bildirilib.

Qeyd edək ki, Orta Dəhliz Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropa ölkələrinə qədər uzanır və Bakı-Tbilisi-Qars dəmir yolu xətti dəhlizin bir hissəsidir. Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçərək Avropa ölkələrinə qədər uzanır. 2023-cü ildə bu marşrutla 2,7 milyon ton yük (2022-ci ilə nisbətən 86 faiz çox) daşınıb. Bu ilin yanvar-iyul aylarında isə həmin göstərici 2,5 milyon ton təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 62 faiz çoxdur. Bu il Orta Dəhliz vasitəsilə 4,2 milyon ton yük daşınacağı proqnozlaşdırılır.

### Ekspert rəyi



**Məhəmməd ƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, dosent**

Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.

Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca yaradılan vahid tarif, "vahid pəncərə" prinsipləri tətbiq olunur.

Orta Dəhlizlə bağlı bir məqamı xüsusi vurğulamaq istərdim. Belə ki, Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən bu dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

Çinin "Bir kəmər, bir yol" layihəsinin bir hissəsi kimi bu dəhliz, həmçinin tarixi İpək yolunun ən mühüm komponentlərindən biri kimi dəyərləndirilir. Buna görə də Orta Dəhliz üzrə tranzit müddətinin bu il ərzində 18-23 gündən 14-18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.

Prezident İlham Əliyev ölkənin tranzit-nəqliyyat potensialının inkişafına xüsusi diqqət yetirir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanını tikib, Bakı-Tbilisi-Qars dəmir yolunu inşa edib, bütün beynəlxalq istiqamətlərdə nəqliyyat infrastrukturunu yeniləyib.

Orta Dəhlizin səmərəliliyinin bundan sonra da artmasını şərtləndirən bir sıra amillər var. Dünya Bankının (DB) yaydığı məlumata əsasən, bu maliyyə qurumu Orta Dəhlizin səmərəliliyini yüksəltmək üçün Azərbaycan, Qazaxıstan və Gürcüstana bütün nəqliyyat şəbəkəsi üzrə yüklərin izlənilməsi imkanının təminini tövsiyə edib. Bunun üçün həm dəmir yolu, həm də Xəzər dənizi ilə daşımaları əhatə edən vahid elektron sənəd dövriyyəsinə keçidin gerçəkləşdirilməsi zəruriliyi diqqətə çatdırılıb. Eyni zamanda, logistik qovşaqların yaradılması hesabına yüklərin konsolidasiyası, dəmir yolu nəqliyyatına keçidə yardım göstərilməsi və Şərqlə Qərb arasında yük axınlarının balansının yaxşılaşdırılması əhəmiyyəti vurğulanıb. Bundan başqa, yekun nəqliyyat tariflərinin şəffaflığı və bu məsələdə proqnozlaşdırmaya üstünlük verilməsi də önə çəkilib.

DB Azərbaycan və Qazaxıstana dəniz limanında yüklərin daşınma müddətini azaltmağı, Bakı-Aktau və əks istiqamətdə marşrutlar üzrə konteynerlərin həcmlərini artırmağı, konteynerlər üçün yük və liman tariflərini aşağı salmağı da zəruri sayır. Bildirilir ki, Azərbaycan yüklərin gəmilərdən sahilə daşınmasının səmərəliliyini artırmalı, Qazaxıstan isə limanların bağlanması parametrlərini nəzərdən keçirməli və bütün bazar iştirakçıları üçün ayrı-seçkilik olmadan liman xidmətlərinə çıxışı təmin etməlidir. Beynəlxalq maliyyə qurumu, həmçinin Gürcüstanın liman-dəmir yolu və avtomobil daşımalarının səmərəliliyini artıracağı, naviqasiya kanalının vəziyyətinin yaxşılaşdıracağı və konteynerlər üçün liman tariflərini azaldacağı təqdirdə Orta Dəhlizin səmərəliliyinin yüksələcəyi əminliyini vurğulayır.

Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

# 7 ayda 373 min "ASAN imza"



**Dövlət Vergi Xidmətindən XQ-yə daxil olan məlumatda cari ilin yanvar–iyul aylarında 392 min 41 vergiödəyicisinə 598 min 775 növ xidmət göstərildiyi bildirilib.**

Hesabat dövründə vergiödəyicilərindən daxil olan 20 mindən çox yazılı müraciət cavablandırılıb, onlara 7 milyondan çox məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Yanvar-iyul ayları ərzində 2 min 985 vergiödəyicisinin iştirakı ilə 186 görüş keçirilib, 3 min 147 ödəyiciyə ünvanlı xidmət göstərilib, onların mobil nömrələrinə 1 milyon 552 mindən çox məlumatlandırıcı SMS göndərilib.

Hesabat dövründə, ümumilikdə, 224 min 898 müraciət üzrə 372 min 398 "ASAN imza" sertifikatı verilib.

# "Azərkosmos" Cənubi Afrikada 6 dövlətlə əməkdaşlıq edir

**"Azərkosmos" Cənubi Afrikada yerləşən Botsvana dövlətinin Mülki Aviasiya İdarəsi ilə əməkdaşlığa başlayıb**




Azərbaycan Respublikasının Kosmik Agentliyindən ("Azərkosmos") aldığımız məlumata görə, bu qurum imzalanmış uzunmüddətli tərəfdaşlıq müqaviləsi əsasında Cənubi Afrikada yerləşən Botsvana dövlətinə "Azerspace-1" peyki vasitəsilə yerüstü rabitə və data xidmətləri göstərəcək. "Azerspace-1" peyki vasitəsilə C yayım zolağının Afrika şüası üzrə Botsvanaya peyk data xidməti göstərilməsi ilk dəfə həyata keçirilir.

"Azərkosmos" təkcə Cənubi Afrikada yerləşən 13 dövlətdən 6-na peyk xidmətləri göstərir. Botsvana ilə yaradılan bu əməkdaşlıq Cənubi Afrika ölkələrində həyata keçirilən irihəcmli data layihələrində "Azerspace" peyklərinin xidmətlərinin istifadəsini genişləndirəcək.

# "AzerGold" qiymətli metaldan 1,3 milyard manat qazanıb

**"AzerGold" QSC İdarə Heyətinin sədri Zakir İbrahimovun ölkə mediasına açıqlamasında həmin vəsaitin 1 milyard 231 milyon manatının ABŞ dolları ekvivalentində ixrac gəlirlərindən, 61 milyon manatının isə daxili satışlardan əldə olunduğu bildirilib.**




"Bu ilin ilk 7 ayında 25,8 min unsiya qızıl və 46 min unsiya gümüşün yerli və beynəlxalq bazarlarda satışı həyata keçirilib. Nəticədə, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 19 faiz çox, 103,8 milyon manat gəlir əldə edilib. Bu il üçün hasilat hədəfi ötən illə müqayisədə 10 faiz, satış hədəfi isə 3 faiz artırılaraq 70 min unsiyaya çatdırılıb", – "AzerGold" QSC İdarə Heyətinin sədri vurğulayıb.

"AzerGold" QSC-nin Daşkəsən rayonunda yerləşən hasilat sahəsində bu ilin 7 ayında 34,7 min unsiya qızıl və 57,7 min unsiya gümüş hasil olunduğunu əlavə edən Z.İbrahimov ötən ilin eyni dövrü ilə müqayisədə qızılın hasilatında 49 faiz artıma nail olunduğunu bildirib.

# İqtisadi artım 3,8 faiz yüksələcək

**Niderlandın "ING Group" şirkəti 2024-cü il üçün Azərbaycanın iqtisadi artım proqnozunu 3,8 faiz, 2025-ci ildə 2,5 faiz, 2026-cı ildə isə 2,8 faiz səviyyəsində müəyyənləşdirib.**



Şirkət açıqlamasında 2024-cü ilin üçüncü rübündə ÜDM artımını 3,5 faiz, dördüncü rübdə isə 3 faiz proqnozlaşdırıb. Həmçinin 2025-ci ilin birinci rübündə iqtisadi artım proqnozunun 1,7 faiz, ikinci rübdə 2,5 faiz, üçüncü rübdə 2,7 faiz, dördüncü rübdə isə 3 faiz səviyyəsində nəzərdə tutulduğu vurğulanıb.

Azərbaycan Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar–iyun aylarında ölkədə ötən ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. Azərbaycan hökuməti tərəfindən ÜDM artımının 2024-cü ildə 2,4 faiz, 2025-ci ildə isə 2,9 faiz səviyyəsində proqnozlaşdırılıb.

Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, bu il Azərbaycanda ÜDM-in artımı 3,8 faiz, 2025-ci ildə 2,8 faiz təşkil edəcək. Dünya Bankının qiymətləndirmələrində isə respublikamızda ÜDM istehsalının bu il 2,3 faiz, 2025-2026-cı illərdə 2,4 faiz artacağı gözlənilir.

# Neft hasilatı artacaq




**"Fitch" beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) 2025-ci ilədək hasilatı 0,5 faiz artıracağını proqnozlaşdırır.**

Agentliyin bu barədə yaydığı məlumata görə, ötən il SOCAR-ın neft və qaz hasilatı, ümumilikdə, gündəlik 286 min barel neft ekvivalenti səviyyəsində sabit olub: "Bu, Azərbaycanın neft hasilatının 8 faiz azalması və qaz hasilatının 3 faiz artmasının ardınca baş verib. Azərbaycanın neft hasilatı tarixən azalıb və biz bunun dəyişəcəyini gözləmirik. Güman edirik ki, təbii qaz hasilatının artması hesabına SOCAR-ın hasilatı 2023-2025-ci illərdə hər il 0,5 faiz artacaq".

# 3 KOB subyekti "Startap" şəhadətnaməsi alıb

**"Startap" şəhadətnaməsinin verilməsi üzrə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaradılmış Ekspertlər Şurasının növbəti iclası keçirilib. KOBİA-dan verilən məlumata görə, iclasda KOB subyektlərindən daxil olmuş 6 müraciətə baxılıb və onlardan 3-nə "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul edilib. Bununla da "Startap" şəhadətnaməsi alan KOB subyektlərinin sayı 164-ə yüksəlib.**




KOB subyektləri bu sənədi aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə edilən gəlirlər üzrə mənfəət vergisindən 3 il müddətinə azad edilirlər.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## "Yaşıl dünya" naminə həmrəylik



# İqlim dəyişikliyi dünyada ümumi tərəqqini əngəlləyir

## Azərbaycan bu bəlaya qarşı Dünya Bankı ilə səmərəli əməkdaşlıq edir

**(əvvəli 1-ci səhifədə)**

Bununla belə, aşağı gəlirli ölkələrdə tələb olunan maliyyələşdirmə ÜDM-in 5 faizini keçə bilər. Bu zaman yüksək gəlirli ölkələrin ciddi dəstəyi, o cümlədən daha güzəştli maliyyələşdirməsi tələb olunur.

DB, həmçinin davamlı inkişafa nail olmaq və yoxsulluğa son qoymaqla yanaşı, qlobal istiləşmənin 2°C, imkan olarsa 1,5°C ilə məhdudlaşdırılmasında irəliyə doğru mühüm addımı şərtləndirən yeni maliyyələşdirmə əməliyyatlarını Paris Sazişinin məqsədlərinə uyğunlaşdırmağı öhdəsinə götürüb. Bank 2023-cü il iyulun 1-dən özünün bütün maliyyələşdirmə əməliyyatları bu öhdəliyə uyğun olduğunu qeyd edib.

Sözügedən maliyyə qurumunun məlumatına görə, DB-nin baş ofisində İqlim Dəyişikliyi ilə Mübarizə üzrə Maliyyə Nazirləri Koalisiyasının katibliyi fəaliyyət göstərir. 86 ölkənin maliyyə nazirliyini və 26 institusional tərəfdaşı birləşdirən bu koalisiya 2023-cü ildə bankın növbəti yaz toplantısında yaradılıb. Koalisiya yaradılarkən qarşıya qoyulan əsas məqsəd iqlim dəyişikliyi və ədalətli keçidin iqtisadi gündəmdə əsas yer tutmasını gerçəkləşdirmək, ölkələrin üzləşdiyi strateji problemləri müzakirə etmək və strategiyaların həyata keçirilməsində səmərəli təcrübəni bölüşmək olub.

Koalisiya artıq maliyyə nazirliklərinin iqlim fəaliyyətinə üstünlük verməyə kömək göstərmək üçün yeni tövsiyələr dərc edib. Siyasi qərarlar qəbuluna cavabdeh şəxslər, həmçinin ən çox çirkləndirici sənaye və fəaliyyətləri karbonsuzlaşdırmağı hədəfləyən "keçid maliyyəsi"ni də müzakirə edib və potensialın artırılması, eləcə də yeni "yaşıl" siyasət və proseslərin həyata keçirilməsi üçün proqramları genişləndirib.

DB-nin Azərbaycanla əməkdaşlığına gəldikdə isə, bu məsələdə sosial-iqtisadi sahələrlə yanaşı, "yaşıl eneji" siyasətinin gerçəkləşdirilməsi də ön planda saxlanılır. Məsələn, 2022-ci ildə keçirilən Bakı Enerji Forumunda Azərbaycanın Energetika Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Dünya Bankı ilə birgə hazırladığı "Dəniz külək enerjisinin inkişafı üzrə Yol Xəritəsi" 2040-cı ilədək ölkəmizin Xəzər şelfində ümumi gücü 7,2 QVt olan dəniz külək stansiyalarının quraşdırılması nəzərdə tutur. Ekspertlərin fikrincə, bu, Azərbaycanın dekarbonizasiya və davamlı inkişaf sahəsindəki prioritetlərə uyğun gəlir.




Bildirilir ki, respublikamızda dəniz külək enerjisinin quraşdırılmış gücü ölkənin enerji təchizatının 37 faizini təmin edə bilər. Bundan əlavə, Azərbaycanda dəniz külək enerjisinin tədrici inkişafı nəticəsində 2040-cı ilədək quraşdırılmış gücünün 1,5 QVt-a çatacağı və 7 faiz karbonsuz enerji istehsalına nail olunacağı proqnozlaşdırılır.

Yol Xəritəsində dəniz külək enerjisinin potensialından istifadəyə dair tövsiyələr də var. Bunlara 2030-cu və 2036-cı illər üçün hədəflərin müəyyən edilməsi, 200 MVt gücündə pilot layihənin və daha sonra daha böyük layihələrin işlənib hazırlanması, dənizdə yeni külək enerjisi imkanlarının açılması, infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinin cəlb edilməsi üçün qabaqcıl qlobal təcrübələrin tətbiqi, eləcə də dayanıqlı dəniz külək layihələri üzrə bir sıra tədbirləri həyata keçirmək məqsədilə dövlət təşkilatlarının əməkdaşlarının bilik və bacarıqlarının artırılması daxildir.

Azərbaycan hökuməti respublikamızda daxili istehlak və ixrac məqsədilə bərpaolunan enerjinin inkişaf etdirilməsi, şəbəkənin gücləndirilməsi və modernləşdirilməsi, həmçinin regional "yaşıl enerji" dəhlizinin həyata keçirilməsi ilə bağlı genişmiqyaslı fəaliyyətdə DB-nin iştirakını yüksək qiymətləndirir.

Bildirilir ki, Dünya Bankının AYİB və digər potensial tərəfdaşlarla sıx əməkdaşlıq şəraitində 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyalarının enerji sisteminə inteqrasiyası məqsədilə şəbəkənin gücləndirilməsi prosesinin intensivləşdirilməsi və bu məqsədlə maliyyə dəstəyinin tezləşdirilməsi ölkəmizin bərpaolunan enerji ilə bağlı hədəflərinin reallaşdırılması üçün mühüm əhəmiyyət daşıyır. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinin, növbəti illərdə dənizdə külək enerjisi potensialının artırılması üzrə əməkdaşlığın isə Azərbaycanın "yaşıl enerji"nin təchizatçısı olması dəstəklənir.

Hazırda 4 ölkəni əhatə edən dəhlizin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması, Birgə Müəssisənin yaradılması, həmçinin Mərkəzi Asiyadan bu dəhliz vasitəsilə yaşıl enerjinin ötürülməsi ilə bağlı məlumatlar diqqətdə saxlanılır və müvafiq layihələr gerçəkləşdirilir.

Sonda qeyd edək ki, DB-nin məlumatına görə, bu maliyyə qurumunun iqlim maliyyələşdirməsi 2023-cü ildə rekord həddə çataraq 29,4 milyard ABŞ dolları təşkil edib.

*VB AYRAMOV*
*XQ*

# BMT Azərbaycanın COP-a sədrliyindən yaxşı nəticələr gözləyir

**"Azərbaycanın COP-da sədrliyi bizim üçün yaxşı nəticələr vəd edir". BMT-nin baş katibinin köməkçisi, təşkilatın siyasət üzrə iş və proqram dəstəyi bürosunun direktoru Markos Neto qurumun İnkişaf Proqramının (UNDP) "X" hesabındakı paylaşımında Azərbaycanın COP29-da sədrliyindən yüksək nəticələr gözləndiyini diqqətə çatdırıb.**

M.Neto daha sonra BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsi üçün yeni hədəflərin müəyyənləşdirilməsinin zəruriliyini vurğulayıb.



BMT rəsmisinin sözlərinə görə, sözlərinə görə, "yaşıl enerji"yə keçid məqsədilə trilyonlarla dollar vəsait lazımdır: "Bununla bağlı hədəflərimizə nail olmaq üçün noyabrda Bakıda keçiriləcək COP29 sammitində əsaslı maliyyələşmə sistemi razılaşdırılmalıdır. BMT-nin İnkişaf Proqramı bu yolda Azərbaycan hökumətini dəstəkləmək niyyətindədir. Bütövlükdə beynəlxalq ictimaiyyət nəzərdə tutulan hədəflərə çatmaq üçün bizə yardım etməlidir. Bu, son dərəcə vacib məqamdır. Hesab edirəm ki, Azərbaycanın COP29-a sədrliyi BMT üçün yaxşı nəticələr vəd edir".

*XQ*

# Naxçıvanda "yaşıl" aksiya



**Naxçıvan şəhəri ərazisində təmizliyə riayət olunmasını təbliğ etmək məqsədilə şəhər icra hakimiyyəti "Təmiz və abad şəhər" devizi altında kütləvi təmizlik aksiyası təşkil edib.**

Naxçıvan şəhəri, Əliabad, Xətai məhəlləsi və digər qəbiristanlıqlarda həyata keçirilən təmizlik-abadlıq işlərində dövlət qurumlarının, bələdiyyələrin əməkdaşları fəal iştirak ediblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətindən XQ-yə bildirilib ki, ətraf mühit problemlərinin aradan qaldırılmasında normativ və institusional tədbirlərlə yanaşı, ictimai aksiya və maarifləndirmə fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Buna görə də "Yaşıl dünya naminə həmrəylik ili"ndə şəhərdə belə iməciliklərin müntəzəm təşkili nəzərdə tutulub.

*XQ*

**12 Avqust Xəzər Günü**

# Xəzərin problemləri qloballaşır

## Hövzəyə hər il 45 kubkilometr çirkab axıdılır



**Azərbaycanın evsahibliyi edəcəyi COP29 mötəbər beynəlxalq sammitində əsas komponentlər sırasında Xəzərin ekoloji dəyişiklik problemləri də mühüm yer tutacaq. Danışıqlar prosesi ilə paralel iqlim fəaliyyəti gündəliyində dənizin mövcud vəziyyəti ilə bağlı təşəbbüs də diqqət mərkəzində saxlanılacaq. Bu da şübhəsiz ki, Xəzər probleminin yalnız milli və regional səviyyədə deyil, həm də beynəlxalq miqyasda iqlim dəyişmələrinə uyğunlaşma proqramları çərçivəsində həllinə zəmin yaradacaq.**

Xəzər dənizini çirkləndirən əsas mənbələr sırasında təmizlənməmiş sənaye məhsulları və kənd təsərrüfatı tullantıları, çay və dəniz gəmiçiliyi, quru və su sahillərində qaz və neft buruqlarının istismarı, dəniz dibinin dərinləşdirilməsi işləri zamanı ikinci çirklənmə, atmosfer və su vasitəsilə uzaq zonalardan çirkli maddələrin gəlməsi kimi məsələlər yer alır. Qeyd etmək lazımdır ki, çaylar vasitəsilə hər il Xəzərə 45 kubkilometr çirkab daxil olur ki, onun da 60 faizi Volqa çayının payına düşür. Əgər bu çirkli sular dənizin üst qatında bərabər paylansaydı, onda il ərzində həmin qatın qalınlığı 10-11 santimetrə çatardı.

Xəzər sularının çirklənməsinə Kür və Ural çayları da mənfi təsir göstərir. Tbilisi, Rustavi şəhərlərinin və sənaye müəssisələrinin çirkab suları, həmçinin kənd təsərrüfatında işlədilən müxtəlif toksiki maddələr Kür çayı vasitəsilə Xəzərə axıdılır. Dəniz sahillərində yerləşən şəhərlərdən Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt, Ənzəli şəhərlərindən də dənizə daxil olan çirkab suları onun əsas çirkləndiricilərindən hesab edilir. Bununla yanaşı, dənizdə neft yataqlarının istismarı və neft məhsullarının daşınması, habelə dəniz



nəqliyyatı da Xəzər sularını xeyli çirkləndirir.

Ekoloji şəraitə dəniz səviyyəsinin tərəddüdləri də təsir göstərir. Dənizin səviyyəsi aşağı düşdüyü zaman şorluğu artır, balıqların sahil zonalarında qidalandığı bölgələrin məhsuldarlığı və sahəsi azalır. Dənizin səviyyəsi qaxdıqca isə suların, xüsusilə böyük çayların delta bölgələrinə yanaşan sahələrdə şorluğu dərəcəsi aşağı düşür və yem ehtiyatı artır. Bunlarla yanaşı, dəniz sularının yuxarıda göstərilən maddələrlə, xüsusilə neft məhsulları ilə çox çirklənməsi aerasiya prosesini ciddi pozur, dəniz fauna və florasının məhv olmasına gətirib çıxarır.

Dənizin ən çox çirklənmiş yerləri, eyni zamanda, ekoloji böhran sahələridir. Belə sahələrə Bakı, Sumqayıt, Mahaçqala, Türkmənbaşı şəhərlərinin akvatoriyaları, istismarda olan dəniz neft yataqları rayonları aid edilir.

Xəzər dənizin çirklənməsindən danışarkən bir sıra amillər nəzərə alınmalıdır. İlk növbədə, çirkabın qeyri-bərabər paylanması dənizin ayrı-ayrı sahələrinin ciddi şəkildə çirklənməsinə gətirib çıxarır. İkincisi, sahilboyu yaranan çirklənmə dənizin digər zonalarına da mənfi təsir göstərir. Nəzərə alsaq ki, tullantılar əsasən suyun üzərində – üst qatında toplaşaraq "su-atmosfer" zonası yaradır, onda məhz burada yığılmış çirkablar hesabına daha çox dənizin bioloji əhəmiyyətli sahələrinin çirkləndiyini qeyd etmək lazım gəlir.

Xəzər canlı aləmlə zəngin hövzədir. Onun canlı aləmi mütəxəssisləri yaxşı mənada heyrətləndirməkdədir. Balıqlar, quşlar, su bitkiləri, onurğasız heyvanlar... dənizin sərvətidir. Xəzərdə 1400-ə qədər fauna, 110 balıq növü vardır. Burada nərə, uzunburun, ağ balıq, Xəzər qızılbalığı, ağ qızılbalıq, çəki, xəşəm, kütüm və s. kimi qiymətli balıq növləri yaşayır. Dünyada ağ balığın 70 faizi, Qara kürünün demək olar ki, hamısı Xəzəryanı dövlətlərin hesabına istehsal olunur. Ona görə də Xəzəryanı dövlətlər ağ balığın çoxaldılması qayğısına qalmalıdır. Ölkəmizdə balıqyetişdirmə zavodları bu sahənin inkişafı ilə məşğuldur. Balıqyetişdirmə texnologiyasının indiki səviyyəsindən, təəssüf ki, maksimum istifadə edilmir. Əgər Xəzəryanı dövlətlər ciddi şəkildə əlbir olaraq bu sahənin inkişafına diqqət yetirməsələr, tezliklə bu qiymətli nemətdən, əvəzolunmaz sərvətdən məhrum ola bilərik. Dənizin yeraltı sərvətlərinin ölçüsüz istismarı da öz mənfi təsirini göstərməkdədir.

Xəzərin balıq xəzinəsinin artırılmasında Kür çayının təmiz saxlanılmasının böyük ekoloji əhəmiyyəti var. Alimlərin məlumatlarına əsasən 1951-ci ildə Kür çayında 1299 sentner, Xəzər dənizində 233 sentner qızıl balıq tutulduğu halda, 1958-ci ildə bu rəqəmlər müvafiq olaraq 79 və 21 sentnerə enib. Bunun da əsas səbəbini, ilk növbədə, Xəzərə tökülən çayların ciddi zibillənməsində axtarmaq lazımdır. Məhz çirklənməyə görə, Azərbaycan sularında balıq ovu 1931-ci ilə nisbətən 4 dəfə, o cümlədən qızılbalıq 20 dəfə, nərə balığı 3 dəfə, qiymətli balıqlar 7 dəfə, şamayı balığı 11 dəfə azalıb.

Alimlərin dediklərinə əsasən, son 15-20 ildə Xəzər dənizinin ekoloji vəziyyəti, iqlim dəyişikliyi, dəniz səviyyəsinin qalxıb-enməsi çirklənmə və digər antropogen və təbii amillərin birgə təsiri nəticəsində xeyli dəyişib. Xəzəryanı ölkələrin mütəxəssislərinin qeyd etdiyi kimi, təkcə nərə balıqlarının deyil, digər qiymətli balıqların da bütün ehtiyatı azalıb.

Dənizdəki su quşları da təbiətin bizə bəxş etdiyi möcüzədir. Qızılağac qoruğunun nadir iqlimi buranı su quşlarının daimi məskəninə çevirib. Onlar Xəzərin balıqları və sahil bitkiləri ilə qidalanır. Mən bir ekoloq kimi quşların yuvaları, yuvada təzə pərvəriş tapan balaları ilə mütəmadi üz-üzə gəlirəm. Təbiətin bu möcüzəsinə sevinirəm.

Xəzərdə həm də müxtəlif su bitkiləri vardır. Bu bitkilər dəniz heyvanlarının, su quşlarının inkişafında mühüm rol oynayır.

Xəzər, eyni zamanda, "Qırmızı kitab"a düşən köçəri quşların məskənidir. Dənizin Azərbaycan sektorunda fəaliyyət göstərən Qızılağac Milli Parkı belə nadir quşların məskənidir. Tanrının bizə bəxş etdiyi bu əvəzolunmaz neməti qoruyub mühafizə etmək hamımızın müqəddəs borcudur. Buna görə də dünyanın əlaqədar qurumları hər il "Xəzər günü " və sentyabr ayının son günlərini "Dəniz günü" kimi qeyd etməklə bununla ekoloji durumun saflaşmasına səy göstərirlər.

Son illərdə Xəzərin suyunun azalması ciddi narahatlıq doğurur. Alim-ekoloqların rəyinə əsasən, Xəzərin səviyyəsinin proqnozlaşdırılan həcmdə azalması, çirklənmə və həddindən artıq istismarla əlaqədardır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firudin Əliyevin dediyinə görə Xəzər dənizinin Hövsan və Türkan sahillərində nazirliyin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin əməkdaşları ilə baxış keçirilib. Balıq nümunələri üzərində aparılan analizlər zamanı infeksion xəstəliklərin törədiciləri, zəhərlənmə halları və kənar fiziki təzyiqlər aşkar olunmayıb. Müəyyən edilib ki, suyun temperaturunun yüksək olması nəticəsində suda həll olmuş oksigenin miqdarı qeyri-optimal səviyyəyədək azaldığından balıqlar tələf olub.

Artıq insanlar başa düşürlər ki, dəniz bizim üçün təbii sərvət və həyati tələbatdır. Bu gün Xəzəri çirkləndiririksə, orada yaşayan bioresursların inkişafına böyük zərbə endirmiş oluruq. Xəzərin nemətlərindən istifadə edirikse, onun ətrafına zibil töküb çirkləndirməyə heç kimin mənəvi haqqı yoxdur. Mavi Xəzəri təmiz saxlamaq, onun sərvətlərini göz bəbəyi kimi qorumaq ümumxalq işinə çevrilməlidir. Gəlin, unikal sərvətlərlə zəngin olan, Xəzərə laqeyd münasibət bəsləməyək!

*Bəxtiyar HÜSEYNOV,*
*yazıçı-ekoloq*

Yazdığımıza qayıdırıq

# Amerikalılar “Zvartnots”a nə vaxt eniblər?

**Caliber.az saytı avqustun 6-da ABŞ Hərbi Hava Qüvvələrinə məxsus 2 təyyarənin Ermənistanın “Zvartnots” hava limanına enməsi ilə bağlı eksklüziv material paylaşmışdı. Sayt, bildirmişdi ki, “Boeing C-17” hərbi yük təyyarələrində hərbi yüklə yanaşı, İran ərazisindən buraxılan raketlərin və digər uçan aparatların trayektoriyalarını izləyən xüsusi qurğular daxil olmaqla, bu avadanlıqları idarə edəcək şəxsi heyət də Ermənistana gətirilmişdi.**




Azərbaycan və İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə diqqəti cəlb etməmək üçün hərbçilərin diqqətlə seçildiyi vurğulanırdı. Qeyd olunurdu ki, Azərbaycan və İranla sərhəddə yerləşdiriləcək hərbçilərin diqqətlə seçildiyi vurğulanır. Onların əksəriyyəti erməni əsilli, Amerika ordusunda xidmət edən ABŞ vətəndaşları, postsovet ölkələrindən ABŞ-a köçmüş slavyan və Qafqaz görünüşlü şəxslərdir. Eyni zamanda, şəxsi heyətin Ermənistan silahlı qüvvələrinin forması ilə təchiz olunduğu və Zəngəzurdakı Ermənistan silahlı qüvvələrinin hərbi bazasında yerləşdirildiyi bildirilirdi.

Caliber.az-ın sensasiyalı məqaləsinin dərcindən sonra ABŞ-ın Ermənistandakı səfirliyi Zəngəzura Amerika hərbçilərinin yeridilməsi ilə bağlı yayılan məlumatlara reaksiya verməyə tələsdi. ABŞ diplomatik missiyasının cavabında deyilirdi: “ABŞ və Ermənistan arasında əməkdaşlığın artırılmasına yönəlmiş “Eagle Partner 2024” təlimləri iyulun 24-də uğurla başa çatmışdır. Biz təsdiq edə bilərik ki, Amerikanın bütün texnikası və şəxsi heyəti Ermənistanı tərk etmişdir”.

Ancaq Caliber.az saytı yazır ki, “Eagle Partner 2024” təlimi iyulun 15-dən 24-dək Ermənistanda keçirilmişdi. ABŞ Hərbi Hava Qüvvələrinin hərbi-nəqliyyat təyyarələri isə Ermənistana avqustun əvvəlində gəlmişdi. Yəni səfirlik saytın məlumatına reaksiya verdi, amma bu reaksiya tamamilə mövzudan kənar oldu. Beləliklə, ABŞ səfirliyi Caliber.az saytının təqdim etdiyi məlumatları təkzib edə bilmədi. Görünən odur ki, ortada region ictimaiyyətini çaşdırmaq üçün nəzərdə tutulmuş təxribatçı manevr etmək cəhdi var.

Dünən isə Caliber.az-ın redaksiyası “Zvartnots” İrəvan hava limanına enən hərbi-nəqliyyat təyyarələrindən birinin fotolarını ictimaiyyətə açıqladı. Caliber.az-a avqustun 2-3-də Ermənistana gələn amerikalı hərbçilərin irəli çəkilmə marşrutu və dəqiq yerləşdirmə yeri də məlumdur. Belə ki, fotoda göstərilən təyyarə Qətərdən havaya qalxaraq Gürcüstanın hava məkanından Ermənistan ərazisinə daxil olmuşdur. 2 gün əvvəl rus sərhədçilərinin ehtiyatla geri çəkildiyi "Zvartnots"da, bu Amerika hərbi daşıyıcısından ABŞ Silahlı Qüvvələrinin silahları və şəxsi heyəti olan 3 konteyner boşaldıldı və sonrakı yerləşdirmə ərazisinə göndərildi.

Caliber.az saytı xəbərdarlıq edir ki, ABŞ səfirliyi və erməni tərəfi aşkar olanı inkar etməyə davam edəcəyi təqdirdə, redkasiya ABŞ müdafiə naziri Lloyd Ostinin tabeçiliyində olan hərbçilərin Ermənistanda qalması ilə bağlı yeni təfərrüatları təqdim edəcək. Sayt bildirir ki, əlində materiallar var, lakin həmin məlumatları hissə-hissə dərc edəcək. O ümidlə ki, amerikalı tərəfdaşlar saytın mövzu ilə bağlı yaydığı məlumatları Azərbaycan vətəndaşlarına əvvəlkindən daha səmimi şəkildə şərh etmək arzusunda olacaqlar.

Çox maraqlıdır, Tehranın “qırmızı xətləri”, Ermənistanın ərazi bütövlüyü və Cənubi Qafqazda qeyri-regional qüvvələrin mövcudluğunun yolverilməzliyi barədə “tezislərini” yorulmadan təkrarlayan İranın Ermənistandakı səfirinin reaksiyası necə olacaq? Caliber.az yazır: “Mifik İsrail hərbi bazalarını Azərbaycanda həvəslə axtaran bir sıra iranlı deputatların, ictimai xadimlərin və politoloqların reaksiyası da maraqlıdır. Onlara demək istədiyimiz budur: siz Azərbaycanda heç vaxt olmamış İsrail bazalarını axtararkən, erməni dostlarınız artıq Amerika əsgərlərini sərhədlərinizə gətiriblər. Doğru yerdə axtarmırsınız, cənablar”.

**XQ**




# İDEA-nın Kür aksiyası



**IDEA İctimai Birliyi tərəfindən Kür çayı sahilində ənənəvi təmizlik aksiyası təşkil edilib. Aksiya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərəfdaşlığı ilə Kür çayının Neftçala rayonu ərazisindən keçən hissəsində reallaşıb.**

Aksiyada 30 nəfər könüllü, həmçinin yerli gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sanitar normalara uyğun ləvazimatlar və xüsusi qayıqlarla təchiz olunmuş gənclər Kür çayı və onun sahillərini müxtəlif məişət tullantıları və balıqların kütləvi tələfinə səbəb olan sintetik balıqçılıq torlarından və balıqların təbii mühitdə inkişafının qarşısını alan, kustar üsulla hazırlanmış, istifadəsi qanunla qadağan edilmiş digər alətlərdən təmizləyiblər. Nəticədə yarım tona yaxın tullantı toplanaraq Neftçala rayonunun tullantılar poliqonuna təhvil verilib.

Aksiya zamanı, həmçinin yerli sakinlərə çayın tullantılarla çirkləndirilməsi və zərərli balıqçılıq alətlərindən istifadənin Xəzər dənizi və Kür çayının ətraf mühitinə, eləcə də faunasına zərərləri barədə məlumat verilib.

Aksiyanın keçirilməsində əsas məqsəd Xəzər dənizi və digər su hövzələrinin balıqların təbii inkişafına mane olan alətlərdən təmizlənməsi, həmçinin Kür sahillərinin çirkləndirilməsi və zibillənməsinin qarşısının alınmasıdır. Bu təşəbbüs, eyni zamanda, sahilyanı ərazilərdə təmizliyə riayət olunması, xüsusilə atılan məişət tullantılarının Kür çayı və nəticə etibarilə Xəzərin faunasına vurduğu zərərlərlə bağlı ictimaiyyətin maarifləndirilməsi məqsədi daşıyır.

IDEA İctimai Birliyi aksiyaya qoşulan bütün təbiətsevərlərə göstərdikləri fəallığa, sağlam ətraf mühit naminə verdikləri töhfəyə görə təşəkkürünü bildirir. İctimai Birlik hər kəsi təbiətin mühafizəsi təşəbbüslərinə həssas yanaşmağa, sahillərimizin təmizliyinə riayət etməyə çağırır.

**XQ**

# FHN-in hərbi hissəsində andiçmə



**Fövqəladə Hallar Nazirliyi Mülki müdafiə qoşunlarının “N” saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.**

Qeyd olunub ki, ümummilli liderin uzaqgörən siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz doğma torpaqlarımızı cəmi 44 günə işğaldan azad edib, 24 saatdan az davam edən lokal xarakterli antirerror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olunub.

Çıxış edən gənc əsgər Hüseyn İmanov hərbçi yoldaşları adından əsgəri borcu şərəflə yerinə yetirəcəklərini vurğulayıb.

Sinra gənc əsgərlər ölkəmizin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini qanları və canları bahasına qoruyacaqlarına, Vətənimizə, xalqımıza layiqli əsgər olacaqlarına and içiblər.

Mərasim şəxsi heyətin təntənəli marşla tribuna önündən keçməsi ilə başa çatıb.

**XQ**

XQ-yə cavab verirlər

# AYNA sözümüzü eşitdi

AYNA
AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ

**Qəzetimizin 4 iyul 2024-cü il tarixli sayında dərc olmunmuş “Sözümüz AYNA-yadır” sərlövhəli yazıda paytaxtın mərkəzi hissəsi ilə mikrorayonlar arasında işləyən 52 saylı abtobus marşrutunun yarıtmaz fəaliyyəti tənqid edilmişdi.**



Yazı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyində müzakirə edilmişdir. AYNA İdarə Heyətinin sər müavini Heydər Rüstəmovun imzası ilə XQ-yə verilən cavabda bildirilir ki, 52 saylı avtobus marşrutunda müvəqqəti istismarçı “Xalq Faiqoğlu” MMC-dir. Qəzetin çıxışından sonra marşrutda avtobusların sayı 2-dən 3-ə çatdırılıb, xəttə daha 1 avtobusun buraxılması nəzərdə tutulur. İstismarçı quruma marşrutun fəaliyyətini müasir sərnişindaşıma xidməti səviyyəsinə çatdırmaq, hərəkət cədvəlini tələbata uyğunlaşdırmaq tapşırılıb.

**XQ**

# Dəniz sahilində “Xəzər günü” aksiyası

**12 Avqust Xəzər Günü münasibətilə Dənizkənarı Milli Parkda dənizin ekoloji durumuna həsr olunan maarifləndirici aksiya keçirilib.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyindən XQ-yə bildirilib ki, qurumun nümayəndələri və ekspertlər Xəzər dənizinin səviyyə tərəddüdləri, “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası”ndan irəli gələn vəzifələrin icrası vəziyyəti, Xəzərin hidrometeorologiyası, Xəzər dənizində aparılan ekspedisiyalar, dənizin çirklənmə səbəbləri və qarşısının alınması istiqamətində görülmüş və görüləcək işlər barədə müzakirələr aparıblar.

Aksiyada milli parklar barədə məlumatlandırıcı guşələr, “Xəzər üçün birlikdə” devizini əks etdirən təqdimatlar nümayiş olunub, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Xəzər sahillərində keçirilən təmizlik aksiyaları ilə bağlı təşviqedici videoçarxlar iştirakçıların diqqətinə çatdırılıb.

Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov jurnalistlərə bildirib ki, Xəzər dənizinin qapalı su hövzəsi olması onun səviyyəsində periodik tərəddüdlərə səbəb olur.

***Rəis qeyd edib ki, səviyyə tərəddüdü Xəzər dənizinin su balansı elementləri, yəni, onu qidalandıran çaylar, düşən yağıntının miqdarı, buxarlanma səviyyəsi, digər tərəfdən dəniz dibində baş verən tektonik hərəkətlər ilə əlaqəlidir. Eyni zamanda, fəsillərlə bağlı olaraq səviyyə il ərzində dəyişə bilər:***

– Xəzər dənizinin səviyyə tərəddüdünün müşahidələri qədimdən aparılsa da, ilkin olaraq ölçü cihazı ilə sistemli müşahidə işləri 1837-ci ildən E.A.Lents tərəfindən Bakı şəhəri ətrafı dəniz sahəsindən həyata keçirilməyə başlanılıb. Bu sistemli müşahidələrin əsasında belə bir nəticəyə gəlmək olar ki, 1837-ci ildən XX əsrin 30-cu illərinədək Xəzərin səviyyəsində kəskin tərəddüdlər müşahidə edilməyib. 1882-ci ildə dənizin maksimal səviyyəsi Baltik sistemi ilə 25,2 metr qeydə alınıb. Lakin 2011-ci ildən başlayaraq yenidən kəskin enmə prosesləri müşahidə edilib ki, bu proses də hazırkı dövrə qədər davam edir.

Nazim Mahmudov sonda qeyd edib ki, səviyyə tərəddüdü, eyni zamanda, qlobal iqlim dəyişmələri ilə bağlı olduğundan bütün Xəzəryanı ölkələr tərəfindən bu prosesin öyrənilməsi, gələcək iqlim ssenarilərin seçilməsi və uyğunlaşma tədbirlərinin işlənilməsi vacibdir.

***Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova isə mediaya açıqlamasında deyib:***

– Xidmətin Xəzərdə apardığı hidrometeoroloji müşahidələr dənizin Azərbaycan sektorunda müxtəlif ərazilər üzrə yerləşdirilmiş ümumi 8 hidrometeoroloji müşahidə stansiya və məntəqəsi vasitəsilə həyata keçirilir. Stansiyaların 4-ü tam avtomatlaşdırılmış rejimdə fəaliyyət göstərir. Həmin müşahidələr vasitəsilə dəniz suyunun səviyyəsi, temperaturu, duzluluğu, rəngi, şəffaflığı, dalğanın hündürlüyü, yağıntının miqdarı və digər məlumatlar qeydə alınır.

Ümumdünya Meteorologiya Təşkilatının dəstəyi ilə 1994-cü ildə yaradılmış Xəzər dənizinin hidrometeorologiyası üzrə Koordinasiya Komitəsi mütəmadi olaraq Xəzəryanı ölkələrin hidrometeoroloji məlumatlarının mübadiləsi işini və birgə koordinasiyalı fəaliyyətini təşkil edir. Bu da ölkəmiz üçün hidrometeoroloji müşahidə işlərinin daha dolğun və sistemli həyata keçirilməsinə imkan yaradır.

**R.TAHİR**
**XQ**

Turan dünyası

# Macarlar türk birliyinə önəmli töhfələr verirlər

## Növbəti Hun-Türk Qurultayı hərtərəfli inteqrasiyanı gündəmə gətirdi



**Orta əsrlər Avrasiyasının qüdrətli imperiyasını yaratmış Hun türklərinin Şərqi Avropada varisləri olan macarlar son vaxtlar qədim soy-köklərinə sevgi və ehtiramla bu öyünclü tarixə sahib çıxır.**

Ümumtürk ailəsində layiqli yer tutmaq üçün Macarıstanda müxtəlif etno-mədəni tədbirlər keçirilir, bu dövlət Türk Dövlətləri Təşkilatının və digər ümumtürk qurumlarının tədbirlərində yaxından iştirak edir. Bugünlərdə isə Macarıstanın Buğac şəhərində növbəti Hun-Türk Qurultayının rəsmi açılış mərasimi keçirilib. Diaspora İş üzrə Dövlət Komitəsindən XQ-yə bildirilib ki, Qurultayda Azərbaycanı Diaspora Dəstək Fondu təmsil edib.

Macarıstan parlamentində keçirilən qurultayı vitse-spiker Sandor Lezsak açaraq məclisin Türk dünyasında birliyin və bərabərliyin yaradılmasına, hərtərəfli əməkdaşlığın genişlənməsinə önəmli töhfə verəcəyinə əminliyini bildirib.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev, TÜRKPA-nın Baş katibi Mehmet Sureyya Er, TÜRKSOY-un rəhbəri Sultan Raev, Beynəlxalq Türk Akademiyasının rəhbəri, akademik Şahin Mustafayev, Özbəkistan və Qazaxıstanın mədəniyyət nazirlərinin müavinləri çıxışlarında Türk dünyasında birlik və bərabərliyin önəminə toxunublar.

Azərbaycan nümayəndə heyəti adından çıxış edən Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev Hun–Türk Qurultayının Türk dünyası hərtərəfli inteqrasiyası üçün gündəmə gətirdiyi ideyaların önəmini vurğulayıb. O, çuvaş türklərinin bir deyimini öyünclə səsləndirib: "Var olmuşuq, varıq, var olacağıq".

3 gün davam edən və 3 mindən çox insanı əhatə edən qurultay günlərində ilk dəfə Azərbaycan çadırının qurulması, qədim xalçalarımızın sərgilənməsi, xalq yaradıcılığı nümunələrinin və aşıq sənətinin, eləcə də milli rəqslərimizin təqdim olunması böyük maraqla qarşılanıb.

Xatırladaq ki, 2 ildən bir təşkil olunan Hun-Türk Qurultayının keçirilməsində məqsəd türk xalqları və onların diaspor təşkilatları arasındakı birliyi günün çağırışlarına qovuşdurmaqdır.

*T.RÜSTƏMLİ*
*XQ*

Bölgə ziyalıları

# Qazaxda bir rəssam var...

## Nəcməddin Hüseynov kənddə yaşasa da, əsərlərinin sorağı xaricdən gəlir

**Bu yaxınlarda xaricdən aldığımız şad bir xəbər ölkənin mədəni aləmini dolaşdı: Qazaxlı rəssam Avropa Təbiət Elmləri Akademiyasının "Şərəf" medalına layiq görülüb. Görüşüb təbriklərimizi çatdırdıq. Ömür yoluna, yaradıcılıq uğurlarına nəzər saldıq. Söhbət zamanı sənətə vurğunluğuna heyran qaldıq.**

Nəcməddin Hüseynovun 69 yaşı var. Qazaxın Çaylı kəndində yaşayır. Rəssamlığa kiçik yaşlarından, 3-cü sinifdə oxuyandan karandaşla, kömürlə çəkdiyi şəkillərlə başlayıb. Sənətə bağlılığı qətiləşəndən sonra fırça və akvarelə keçib. O vaxtdan, özü demişkən, fırçanı əlindən yerə qoymayıb. Obraz və mənzərələrə can verdikcə yaratmaqdan, həyata rəng qatmaqdan zövq alıb.

Ötən günlərin bir hadisəsini heyranlıqla danışır: "Məktubə adlı müəllimimiz bizə ev tapşırığı vermişdi. Dərslikdəki həmin mövzunun səhifəsində Xürrəmilər hərəkatının rəhbəri Babəkin şəkli var idi. Qəhrəmanın rəsmini çəkməyə başladım. Gözlədiyimdən də yaxşı alındı. Məktəbin yuxarı siniflərində oxuyan zaman görkəmli alim Xudu Məmmədov şagirdlərlə görüşə gəlmişdi. Mənim çəkdiyim rəsmlərlə tanış oldu. Təxəyyülümü və qabiliyyətimi çox bəyənən Xudu müəllim rəssamlıq məktəbində oxumağımı məsləhət gördü. Hətta mənə söylədi ki, istəsən, sənin yol biletini də mən alaram, yetər ki, gəlib rəssamlıq məktəbində oxuyasan. 10-cu sinfi bitirdikdən sonra Xudu müəllim istirahətdə olduğundan məni rəssamlıq məktəbinə aparmağı Xalq şairimiz Bəxtiyar Vahabzadədən xahiş etdi".

Beləliklə, istedadlı gənc Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil aldı. Tələbəlik illərində Xudu müəllimlə sıx əlaqəsi, dostluğu oldu. Burada tanınmış fırça ustaları Sirus Mirzəzadə, Elxan Tahirov və Rüfət Əsədullayevdən sənətin sirlərini öyrəndi. 1981-ci ildə təhsilini uğurla başa vurdu. Bir müddət Bədii Fondda tərtibatçı-rəssam kimi çalışan Nəcməddin daha sonra şəhərdəki çətinlik və sıxıntılara görə doğma kəndinə qayıdır.





O gün-bu gün, neçə ildir ki, necə deyərlər, bir qırağa çəkilib yaradıcılıqla məşğul olur. Qazandığı uğurları da elə kəndə bağlıdır. Sübut edib ki, tanınmaq üçün məkanın fərqi yoxdur. Azərbaycan Rəssamlar İttifaqı, Rusiya Peşəkar Rəssamlar İttifaqı və Beynəlxalq Müasir İncəsənət Akademiyasının fəxri üzvü olan Nəcməddin Hüseynov həqiqi üzv qəbul edildiyi "Gottfried Wilhelm Leibniz" adına Avropa Təbiət Elmləri Akademiyasının medalına layiq görülüb.

"Əsərlərimə internet vasitəsilə baxdılar. Beynəlxalq sərgiyə təqdim etdiyim beş rəsmimdən biri - "Mənim babam" adlı əsərim rəngkarlıq üzrə Müasir İncəsənət Akademiyasının qızıl medalına layiq görüldü. Bu mənim üçün ən böyük uğurdur".

Nəcməddin Hüseynov əsərlərinin əksəriyyətini boya ilə işləyir. Əsasən natürmort janrında çəkir. Amma o, qeyri-adi bacarığı ilə də diqqət çəkir. Ölkəmizdə ilk dəfə şam tüstüsündən istifadə etməklə 30-dək əsər ərsəyə gətirib.

"Bəzi rəssamların yanan çırağın hisi ilə çalışdıqlarını öyrənib bildikdən sonra qərara gəldim ki, bunu kətan üzərində yoxlayım. Sonra şam tüstüsündən istifadə etdim. Rəsmləri belə üsulla çəkmək çox səbir, təmkin və dəqiqlik tələb edir. Tüstü daha effektli, daha çalarlıdır. Şam tüstüsündən ancaq "ağ-qara" əsərlər işləmək mümkündür. Fikrimcə, tüstü ilə çəkilən rəsmlərin qalma müddəti yağlı boyadan çox olur. Həm də tüstü texnikası mənim xarakterimə uyğundur".

Onun rəsmləri ölkəmizdə bir çox tədbirlərdə sərgilənib, sosial şəbəkələrdə paylaşılıb, məşhur şəxsləri də heyran qoyub. İndiyədək 4 minə yaxın əsərin müəllifi olan rəssamın əl işləri dəfələrlə beynəlxalq sərgilərdə də nümayiş etdirilib.

Nəcməddin Hüseynovun çətinlik çəkmədiyini də söyləmək düzgün olmazdı. Kənddə fəaliyyət göstərdiyindən, lazımi ləvazimatı tapa bilmir, emalatxanası da yoxdur, evindəcə çalışır. Bir şakəri də var: iş başında olanda musiqiyə qulaq asır. Bu, ona ruh və yaradıcı fantaziya verir. Əsərlərini xaricdən onlayn sifariş göndərib, əldə edənlər də var...

"2006-cı ildə "Üçüncülər" adlı rəsm kataloqum işıq üzü gördü. Qazax və Ağstafa rayonlarında fərdi sərgilərim keçirildi. Şəxsi kolleksiyalarda, bir sıra muzey və qalereyalarda da əsərlərim nümayiş olunur. Prezident İlham Əliyev 2008-ci ildə Qazax Dövlət Rəsm Qalereyası binasının açılışında da iştirak edərkən mənim də əl işlərimlə tanış olub və bəyənib".

2018-ci ildə Bakıdakı "NUR Art House" qalereyasında rəssamın növbəti fərdi sərgisi təşkil edilir. Rəngkarlıq və qrafika əsərləri maraqla qarşılanır. Onun fərdi üslubu, texnikası diqqət çəkir, mövzu və janr baxımından rəngarəng yaradıcılığı qeyd edilir. Müəllifin "Qaçqınlar", "Hücumdan sonra", "Xocalı faciəsi", "Həlledici an", "Müharibəli Novruz", "Mustafa kişi", "Mənim babam", "Külək", "Göyəzən", "Sevinc", "İblis", "Bir dünya" və s. əsərlərin düşündürücü olduğu vurğulanır. Duyğularını yüksək peşəkarlıqla əks etdirə bildiyi "Mənim babam" əsəri Rusiyada Beynəlxalq Müasir İncəsənət Akademiyası və Rusiya Peşəkar Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilən "Art excellence awards – 2020" müsabiqəsində qızıl medala layiq görülür. Müasir İncəsənət Muzeyində, Səməd Vurğunun ev-muzeyində əsərləri var.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev sənətdə Novruz palitrasından danışarkən görkəmli mənzərə ustası Səttar Bəhlulzadənin monumental tutumlu "Azərbaycan nağılı" tablosundan sonra Azərbaycan təsviri və tətbiqi sənətində Nəcməddinin işini xüsusi fərqləndirib: "Novruz ünvanlı çoxsaylı əsərlər yaradılsa da, qənaətimizcə, onların ən təsirlisi Qazax rayonunda yaşayan Nəcməddin Hüseynovun ərsəyə gətirdiyi "Müharibəli Novruz" rəngkarlıq tablosudur. Burada Qarabağ cəbhəsində əsgərlərimizin bayram süfrəsi görüntüyə gətirilib. Cəbhədəki gərgin vəziyyət əsgərlərə səməni göyərtməyə imkan vermədiyindən, onlar yaşımtıl rəngə çalan döyüş güllələrinin belinə qırmızı parça zolaq bağlamaqla onu "səməni"yə döndərmiş, rəngli yumurtaları isə iki döyüş qumbarası ilə əvəzləmişlər. Bu, doğrudan da, obrazlı bədii ifadəsinə görə çox gözlənilməz və təsirli bir kompozisiyadır..."

Nənəsinin toxuduğu xalçaların, kilimlərin yanında böyüyüb, ilmələrə, ərişə-arğaca, rənglərə vurulub. Bu vurğunluq onu rəssam edib. Özü də əsl rəssam.

*Əli NƏCƏFXANLI*
*XQ*

Dünya və biz

# Azərbaycan kitabı MDB "Kitab sənəti" müsabiqəsində

**Ölkəmiz Tacikistanın paytaxtı Düşənbədə gerçəkləşən növbəti beynəlxalq kitab müsabiqəsində uğurla təmsil olundu. "Kitab sənəti" Beynəlxalq Müsabiqəsində Müstəqil Dövlətlər Birliyi (MDB) İcraiyyə Komitəsinin təşkilatçılığı ilə 21-ci dəfə keçirilən yarışmada müxtəlif nominasiyalar üzrə Azərbaycan çap məhsulları nümayiş etdirilib.**



Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin baş məsləhətçisi İslam Hüseynov müsabiqə barədə XQ-yə məlumatında bildirdi:

– Son illər ölkəmizdə inkişafına önəm verilən sahələrdən biri də nəşr və poliqrafiya sahəsidir. Bu yöndə müxtəlif mövzuları əhatə edən kitab və jurnalların yüksək keyfiyyətlə hazırlanmasını Azərbaycan nəşrlərinin uğuru kimi də qiymətləndirmək olar. Ölkəmiz mütəmadi olaraq müxtəlif çap məsulları ilə beynəlxalq müsabiqə və kitab yarmarkalarında təmsil olunur, uğurlara imza atır.




Yüksək keyfiyyətlə hazırlanan çap məhsullarımız həm elmi araşdırmalarda istifadə baxımından, həm də oxucu məmnuniyyəti qazanmaq üçün faydalıdır. 9 adda kitabla builki müsabiqəyə qatıldıq. Ümumilikdə, 6 ölkədən bir sıra nominasiyalar üzrə 64 adda kitab təqdim edilmişdi. Açıq səsvermə yolu ilə hər nominasiya üzrə kitabların dəyərləndirilməsi aparıldı. Əvvəlcə nəşr məhsulları haqqında iştirakçı ölkələrin nümayəndələrinə ətraflı məlumat verildi. Ölkəmizin nəşrləri 4 nominasiya üzrə 1-ci, 2 nominasiya üzrə 2-ci, 3 nominasiya üzrə 3-cü yerlərə layiq görüldü.



Müsabiqədə iştirakımızın əhəmiyyətinə toxunan nazirlik rəsmisi qeyd etdi ki, ölkəmizin bu tədbirlərə qatılması milli kitablarımızı MDB məkanında daha yaxşı tanıtmaq məqsədi daşıyır. Biz də birlik ölkələrinin yeni nəşrlərindən xəbər tuturuq.

– Müsabiqədə Azərbaycanla yanaşı, Rusiya, Qazaxıstan, Belarus, Qırğız Respublikası və Tacikistan iştirak edirdi. Ötən illərdə bu müsabiqədə Ermənistan da təmsil olunub. Onlar təqdim etdikləri bir nəşrdə Şuşadakı tarixi abidələr də yer almışdı. Həmin kitabda milli irs nümunələrimiz ermənilərə aid edilmişdi. Biz buna etiraz etdikdən sonra həmin kitab müsabiqədən yığışdırıldı. Onlar isə bildirdilər ki, daha bu müsabiqəyə qatılmayacaqlar. Bu il Ermənistan tərəfi burada təmsil olunmadı. Göründüyü kimi, belə beynəlxalq müsabiqələrdə olmağımız çox əhəmiyyətlidir. Mədəniyyətimizi təbliğ etməklə, kimliyimizi və milli irsimizi tanıtmaqla, ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edib, məşhurlaşdırırıq.

Müsahibimiz sonda onu da əlavə etdi ki, "Kitab sənəti" müsabiqəsinin mükafatları sentyabr ayında keçiriləcək ənənəvi Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında təqdim olunacaq.

*Ceyhun ALIŞLI*
*XQ*

# Türk sənətçinin monotamaşası Bakıda göstəriləcək

**Son illər iki qardaş ölkə – Azərbaycan və Türkiyə sənət adamlarının qarşılıqlı qastrol səfərlər etməsi ənənə halını alıb. Bu dəfə Türkiyənin məşhur kino və teatr aktrisası Sumru Yavrucuk ənənəni davam etdirərək, Bakıya "Şerli Valentin" monotamaşası ilə qastrola gələcək.**




Mədəniyyət Nazirliyindən XQ-yə verilən məlumata görə, tanınmış sənətçi oktyabrın 5, 6-da Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsinə çıxacaq.

İkipərdəli tamaşada gündəlik həyatın cansıxıcılığında itib-batan qəhrəmanın hekayəsi diqqət mərkəzində saxlanılır. O, özünü yenidən kəşf edir və həyat yolunda ayaqları üstə möhkəm dayanmağa başlayır.

Səhnə əsərinin rejissoru teatr sahəsi üzrə bir sıra mükafatların laureatı Sumru Yavrucukun özüdür. Sənətkar tamaşadakı bütün obrazları da özü canlandırır. Qardaş ölkənin tanınmış sənət adamının Bakı qastrolu Mədəniyyət Nazirliyinin dəstəyi, "Caspian Media Group"un təşkilatçılığı ilə reallaşacaq.

Xatırladaq ki, S.Yavrucuk "Yabancı damat" serialındakı obrazı ilə məşhurlaşıb. Daha sonra "Fatmagülün suçu nə?", "Şahanə həyatım", "Evlilik haqqında hər şey" kimi seriallarda da unudulmaz obrazlarla böyük şöhrət qazanıb.

*C. BALABƏY*
*XQ*

# Ukraynanın Kurska hücumu hərbi manevrdir

**Ukraynanın Rusiyanın Kursk vilayətinə daxil olması və qısa müddət ərzində böyük ərazini nəzarət altına alması dünya mediasının müzakirə mövzusu olaraq qalır. Bölgədə federal fövqəladə vəziyyətin, antiterror əməliyyatı rejiminin tətbiq edildiyi bildirilir. Rusiya Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, sərhədyanı ərazilərdən 76 mindən çox insan təxliyə edilib. 4 min 400-dən çox sakin müvəqqəti yaşayış yerlərindədir. Ukrayna rəhbərliyi gözləyir ki, bu əməliyyat rus qoşunlarının diqqətini digər cəbhə mövqelərindən yayındıracaq. Eyni zamanda, Ukrayna prezidenti aparatının rəhbərinin müşaviri Mixail Podolyak bildirib ki, hücumda məqsəd Kiyevin danışıqlarda mövqeyini gücləndirmək olub.**



Ötən nömrələrimizdə Ukraynanın Kursk vilayətinə hücumunun dünyada doğurduğu əks-səda barədə yazmışdıq. Həmçinin Kiyevin belə qəfil əməliyyat keçirməsinin arxasında hansı niyyətlərin olduğunu da vurğulamışdıq. Kursk əməliyyatının siyasi nəticələri barədə müzakirələr hələ davam edir. Bəzi mənbələr bunu Kiyev üçün riskli addım hesab etsə də, digərləri onun Rusiya-Ukrayna qarşıdurmasındakı son vəziyyətə təsir göstərəcəyini düşünürlər. Bu tezislərlə bağlı fikirlər, rəylər haçalanır. Amma dəqiq olan budur ki, Rusiya-Ukrayna müharibəsində yeni reallıq yaranıb və tərəflər, eləcə də münaqişəyə bu və ya diqər dərəcədə bağlı olan ölkələr reallığa uyğun davranmağa məcbur olacaq.

Rusiya gözləmədiyi Ukrayna həmləsinin qarşısını almağa çalışır. Kiyevin nəzarət altına aldığı əraziləri geri qaytarmaq üçün bölgəyə ordu hissələri göndərir. Lakin bu əks-hücumların nə qədər səmərəli olması barədə dəqiq bir söz demək hələlik çətindir. "Financial Times" ötən bazar günü ukraynalı əsgərlərə istinadən yazır ki, Rusiya əlavə qüvvələr göndərməsinə baxmayaraq, Kursk bölgəsindən Ukrayna ordusunu çıxara bilməyib. Rusiya ilə sərhəd yaxınlığında jurnalistlərlə söhbət edən Ukrayna hərbçiləri Rusiya ərazisində qaldıqlarını deyiblər. Ukraynalı hərbçilər iddia ediblər ki, Kiyev qoşunları hələ də üstünlüyə malikdir. Qəzetin yazdığına görə, Ukraynanın Kursk əməliyyatı göstərdi ki, Rusiyanın sərhəd müdafiəsi zəifdir və bu hücum ukraynalılara lazım olan mənəvi ruh yüksəkliyi verib.

Təsdiqlənmiş video və fotolar göstərir ki, Ukrayna qoşunları və texnikası çərşənbə axşamı əməliyyat başlayandan bəri Rusiyanın 30 kilometr dərinliyinə qədər irəliləyib və Kurska yaxınlaşıb. Eyni zamanda, Rusiya sərhədi yaxınlığındakı Suca şəhərində nəzarəti ələ keçirib. Ukrayna prezidenti Volodimir Zelenski şənbə günü axşam beş günlük sükutu pozaraq qoşunlarının Rusiyaya ilk dəfə müdaxiləsini açıq şəkildə deyib. Zelenski bildirib ki, baş komandiri Aleksandr Sırski ona "cəbhə xəttindəki vəziyyət və müharibənin işğalçının ərazisinə keçməsi üzrə hərəkətlərimiz haqqında" məruzə edib. Zelenski Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinə hücumunu daha ətraflı şərh etməyib. Eyni zamanda, o, əlavə edib ki, "Ukrayna döyüş briqadaları həqiqətən də ölkəni səmərəli şəkildə müdafiə edir, işğalçını məhv edir".

Ukrayna ordusunu ərazidən çıxarmağa çalışan Rusiya bölgədəki əhalinin təxliyəsini də həyata keçirir. Kursk vilayətindən 76 mindən çox insan təxliyə edilib. 7 subyektdə 100 müvəqqəti yaşayış məntəqəsinin fəaliyyət göstərdiyi bildirilir. Ukraynanın Kurskla həmsərhəd olan Sumı vilayətində də məcburi təxliyə davam edir. Vilayətin Belovsk rayonunda da vəziyyət gərgindir və yerli hakimiyyət nümayəndələri sakinləri təxliyə etməyə çağırırlar. Sakinlərin könüllü çıxışı həm də sərhədyanı Qluşkovski, Korenevski və Sujansk rayonlarında elan olunur. Bölgənin Rıl və Xomutovski rayonları da Ukrayna ilə həmsərhəddir.

Son məlumatlara görə, Ukrayna və Rusiya bölmələri ərazidə səngərlər qazmağa başlayıblar ki, bu da cəbhə xəttinin tədricən sabitləşdiyini göstərir. Ukrayna mənbələri bildirir ki, istehkamların tikintisi üçün hər iki tərəf sənaye ekskavatorlarından istifadə etməyə başlayıb. Vyanadan olan hərbi analitik Franz-Stefan Hadinin sözlərinə görə, Kursk əməliyyatının növbəti mərhələsi hər bir tərəfin hansı ehtiyatlara malik olmasından və onları necə yerləşdirməsindən asılıdır. Onun sözlərinə görə, Kiyev sürəti saxlamaq üçün əlavə canlı qüvvə və hərbi resurslar yerləşdirməli olacaq, Rusiya isə tez əks-hücuma keçməyə və güclü qanadlı bombalar da daxil olmaqla üstün atəş gücündən istifadə etməyə çalışa bilər. Qadanın sözlərinə görə, "Kurskdakı əməliyyat, xüsusilə piyada qoşunlarının şəxsi heyətində əhəmiyyətli resurslar tələb edir ki, bu da başqa yerlərdə daha təcili lazım ola bilər".

***SE LAY***
***XQ***

# ABŞ-də seçkilər: sərt ritorikalı kəskin rəqabət

**ABŞ-də hazırda prezidentliyə namizədlər arasında seçkiqabağı rəqabət sərt ritorika ilə səciyyələnir. Belə ki, hər iki iddiaçı bir-birinin ünvanına ağır ittihamlar səsləndirməkdən çəkinmir, hətta kobud ifadələr işlətməyi belə özlərinə rəva görürlər. Keçmiş prezident, milyarder Tramp bu sahədə xüsusilə "fərqlənir".**



Seçki texnoloqlarının fikrincə, budəfəki seçkilər Amerika tarixinin ən gərgin seçki kampaniyalarından biri ola bilər. Görünən budur ki, ölkə vətəndaşları artıq özlərini kəskin fikir ayrılıqları burulğanında hiss edirlər. Cəmiyyətdə ideoloji bir parçalanma yaranıb və bu neqativ proses güclənir.

Bəli, dünyanın super dövlətinin vətəndaşı ciddi seçim qarşısındadır. O təbii ki, ölkəsinin gələcəyi, özünün və ailəsinin rifahını düşünərək səs verməlidir. Sual oluna bilər: kim qarşıdakı 4 il üçün Amerika dəyərlərini təmin etməyə daha çox qadirdir: Tramp, yoxsa Harris?

5 noyabrda ölkə seçiciləri bu iki namizəddən birinə üstünlük verməli olacaqlar. Bunu vətəndaşlıq borcu tələb edir. Maraqlıdır, əgər seçkilər bugün keçirilsəydi, o zaman kimin daha çox qələbə qazanmaq şansı olardı? Bu suala cavab tapmaq üçün vaxtaşırı rəy sorğuları keçirilir. Sorğular, təbii ki, həqiqəti tam əks etdirmir, amma xeyli dərəcədə ümumi seçici əhval-ruhiyyəsini təcəssüm etdirir.

Məsələn, iki gün əvvəl nüfuzlu "The New York Times" qəzetinin apardığı rəy sorğularının nəticələrinə əsasən, ABŞ-nin hazırkı vitse-prezidenti, demokrat namizəd Harris builki prezident seçkilərinin nəticələrinə mühüm təsiri olacaq üç ştatda – Viskonsin, Pensilvaniya və Miçiqanda – 4 xalla keçmiş prezident Trampdan öndədir.

Bütövlükdə, Harrisin 42-nin 37-yə səs fərqi ilə ölkə boyu Trampdan öndə olduğu bildirilir. Xatırladaq ki. ABŞ-də rəy sorğularında səhv nisbəti təxminən 3 faiz qəbul olunur. Unutmayaq ki, cəmi 3 həftə əvvəl Co Bayden rəy sorğularında Trampdan xeyli geri qalırdı.

Bəllidir ki, Prezident Co Bayden bu il iyunun sonunda Trampa qarşı teledebatda zəif performans sərgiləyib. Sadə dildə desək, Ağ evin hazırkı sahibi rəqibinə dialoqu uduzub. Kifayət qədər yaşlı olan Bayden bundan sonra partiya rəhbərliyində yaranmış giley-güzarı nəzərə alaraq, iyulun 21-də namizədliyini geri çəkib və Tampa qarşı vitse-prezident Harrisi dəstəkləyib.

K.Harris mənsub olduğu Demokratlar Partiyasından dərhal ciddi maddi və mənəvi dəstək alıb. Xanım vitse-prezidentin namizədliyinin irəli sürülməsi seçkiqabağı kampaniyaya güclü bir dinamizm gətirib. Bu hadisəyə qədər Tramp qələbəni sanki öz cibində hiss edirdi.

İndi seçki yarışında vəziyyət kəskin dəyişir. Nisbətən gənc və enerjili Harrislə mübarizə aparmaq Tramp üçün heç də asan olmayacaq. Lakin çoxları Donaldı "kənək qoz" sayırlar. Nəzərə alaq ki, o, uduzmağı heç bir vəchlə qəbul etmir. Görünür, məhz bu səbəbdən, onun dilindən ara-sıra xanım rəqibinə qarşı kobud ifadələr yer alır.

ABŞ mediası yazır ki, 78 yaşlı Tramp Harrisi durmadan tənqid edərək onu intellektual baxımdan "dayaz" və "radikal solçu" kimi təsvir edir. Rəqibinin adını tez-tez bilərəkdən səhv tələffüz edən respublikaçı milyarder Harrisi seçicilərdən uzaq olan bir siyasətçi kimi qələmə verməyə çalışır: "O, müsahibə verə bilmir, səriştəsi azdır. Onun mətbuat konfransı keçirməyə ağlı çatmır."

Bu günlərdə Tramp Harrisi "Baydendən daha pis və daha az ağıllı" kimi təsvir edərək bildirib: "Söhbət ondan getmir. Söhbət onun pis siyasətindən gedir".

Qarşı tərəf də Trampın ünvanına kinayəli sözlər işlətməkdən vaz keçmir. Harrisin komandası şübhəli Trampı daha çox məhkəmə çəkişmələrində günahlandırır. Bu günlərdə Harris noyabrda keçiriləcək seçkilərdə Minnesota ştatının qubernatoru Tim Valsla (Tim Walts) birgə mübarizə aparacağını bəyan edib. Qubernator seçkiqabağı kampaniya zamanı parlaq çıxışlarının birində deyib ki, son illər ərzində ölkədə qanun pozuntuları Trampın cinayətləri nəzərə alınaraq daha da artıb. Tim Vals gözəl natiqdir. O, auditoriyaya təsir göstərməyi yaxşı bacarır.

Bu günlərdə belə bir fakt da məlum olub ki, Harris iqtisadi etimad sorğusunda da rəqibi Donald Trampı geridə qoyub. "Financial Times" nəşri bu barədə Miçiqan Universitetinin Ross Biznes Məktəbi ilə birgə sorğunun nəticələrinə istinadən yazıb. Respondentlərin 42 faizi iqtisadi məsələlərdə Harrisə güvəndiyini bildirib. Tramp rəqibindən cəmi 1 faiz az səs toplayıb.

Bu arada Trampın seçkiqabağı kampaniyasından mediaya bildirilib ki, prezidentliyə namizədin internetdəki məlumat sisteminə haker hücümü olub. Trampın komandası iddia edir ki, bir çox İran hakerləri həssas daxili sənədləri oğurlamaq və yaymaqda iştirak ediblər.

İranın Birləşmiş Millətlər Təşkilatındakı missiyası Tramp kampaniyasının iddiası ilə bağlı suala cavab olaraq, iştirakını rədd edib. Missiya "Associated Press" agentliyinin əməkdaşına deyib: "Biz bu cür xəbərlərə inanmırıq. İran hökumətinin ABŞ-dakı prezident seçkilərinə müdaxilə etmək niyyəti və ya motivi yoxdur".

Yeri gəlmişkən, Harris və Tramp 10 sentyabrda "ABC News" telekanalı tərəfindən təşkil olunacaq debatda iştirak etməyə razılıq veriblər. Ümumi razılığa görə, iddiaçılar 3 dəfə "telerinqə" çıxmalı olacaqlar.

ABŞ-də teledebatlar seçici simpatiyası qazanmaq üçün geniş imkanlar açır. Hər iki namizəd özünü daha müdrik və səriştəli saydığı üçün, teledebatı udacağını düşünür. Hər şeyin düzünü isə əlahəzrət Zaman göstərəcək.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Maraq dünyamız**

**Azərbaycanın diplomat və jurnalistlərinin Səudiyyə Ərəbistanına səfəri zamanı təşkilatçılar bizi bu dost ölkənin qonaqlar üçün maraqlı olan çox ünvanına aparmışdılar. Müqəddəs yerləri ziyarət edəndən sonra Mədəniyyət və İnformasiya Nazirliyinə, ali məktəblərə, müasir dünya standartlarına cavab verən səhiyyə müəssisələrinə, İslam İnkişaf Bankına, İslam İnformasiya Mərkəzinə, bir neçə qəzet redaksiyasına, "ARAMKO" neft şirkətinin müəssisələrinə getmiş, Peyğəmbər Məscidinin sərinlik qurğuları və həmin müqəddəs məkanı içməli su ilə təmin edən yeraltı təbii soyutma kompressorları ilə tanış olmuşduq. Həmin səfər haqqında "Salam, qibləm olan diyar!" adlı kitabda ətraflı söhbət açmışdım.**

# Fars körfəzinin Kral Fəhd körpüsü

## 25 kilometrlik suüstü yolda süni ada, gömrük və sərhəd postları var



Bu yaxınlarda isə (istinin evdən çıxmağa imkan vermədiyi günlərdə) Rusiyadakı həmkarlarımızın dünya ölkələrindən hazırladıqları maraqlı məlumatlarla tanış olarkən (https://irap.org/ru/2024/07/king-fahd-causeway-achieves-4-star-safety-certification/) Səudiyyə Ərəbistanını Bəhreyn ölkəsi ilə birləşdirən körpü haqqında geniş məlumata rast gəldim. Yadıma düşdü ki, ərəb dostlarımız bizi həmin körpüyə də aparmışdılar. Təbii ki, vizamız olmadığına görə oradan Bəhreyn tərəfə keçə bilməmişdik.

Körpünün tən ortasındakı süni adada tikilmiş 65 metr hündürlüyündə qüllənin sonuncu mərtəbəsində qocaman həmkarımız Fazil Abbasın, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Qabil Köçərlinin və AzTV-nin əməkdaşı Akif Təvəkküloğlunun fotolarını məhz "Xalq qəzeti"nin foto aparatı ilə mən çəkmişdim.

Xatırladım ki, inşası 1986-cı ildə başa çatmış Kral Fəhd körpüsü Səudiyyə Ərəbistanını Bəhreyn ada dövləti ilə birləşdirir. Fars körfəzi üzərində (ona İran körfəzi, Ərəb körfəzi və hətta Bəhreyn körfəzi də deyirlər) inşa edilmiş bu qurğu Asiyada ən uzun – 25 kilometrlik – 7 torpaq bənddən və onları birləşdirən 5 körpüdən ibarətdir. Su üzərindəki körpünün ümumi uzunluğu 12,5 kilometrdir.

Rus həmkarlarımız yazırlar ki, dövlət rəhbərləri – yəni Ər-Riyad və Manama ilk dəfə bu məsələni 1970-ci ilin ortalarında müzakirə etsələr də, layihənin reallaşdırılması 15-16 il davam etmişdir. Bildirilir ki, nəhəng qurğunun layihəsi Səudiyyə Ərəbistanı–Danimarka müştərək şirkəti tərəfindən hazırlanmış və tikintini Hollandiya şirkəti icra etmişdir. Bu nadir mühəndis qurğusunun başa çatması isə Səudiyyə Ərəbistanının kralı Fəhdin adı ilə bağlıdır. Söhbət nəhəng körpüdən getsə də, Ər-Riyadda ona "Məlik Fəhd yolu"da deyirlər.



Yolun ortasındakı süni adada hər iki dövlətin gömrükxanaları və sərhəd xidmətçilərinin məntəqələri, digər inzibati binalar, məscidlər, restoranlar yerləşir. Qüllədəki sürətli liftlər bizi 65 metr hündürlüyü olan sonuncu qata bir göz qırpımındaca çatdırmışdı. Oradan həm Səudiyyə Ərəbistanının, həm də Bəhreynin səhra və sahillərini seyr etmək olurdu.

Mən həmin 65 metr hündürlüyündəki qüllədən körfəzin gəmilərlə, körpünün isə avtomobillərlə dolu olan mənzərəsini izləməkdən məmnun idim. Rus həmkarlarımızın yazısından isə öyrəndim ki, gediş haqqı o qədər də baha olmayan bu körpüyə ağırlığı 45 tonu keçən yük maşınları buraxılmır.



***İttifaq MİRZƏBƏYLİ***

## "Kapital Bank" ASC səhmdarlarının nəzərinə!

**12 sentyabr 2024-cü il** saat 11.00-da, Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən bankın ofisində (3-cü mərtəbə, iclas zalı) bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

**I. "Kapital Bank" ASC-nin Müşahidə Şurasının tərkibinin yenilənməsi haqqında.**

**Məruzəçi: Yaşar Məmmədov**

**II. Digər məsələlər.**

**Məruzəçi: Yaşar Məmmədov**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 171 (30575) 13 avqust 2024-cü il, çərşənbə axşamı

# Paris-2024: Azərbaycan Olimpiyalar tarixində ən yüksək uğur qazandı!



**İyulun 26-dan avqustun 11-dək Parisdə keçirilən Yay Olimpiya Oyunları başa çatdı. Fransanın paytaxtında 10 mindən çox idmançı ilə yanaşı, bunun üçün 41 olimpiya lisenziyası qazanan ölkəmizin təmsilçiləri də mübarizə apardılar. 2 qızıl, 2 gümüş və 3 bürünc qazanan ölkəmiz medal sıralamasında 30-cu yeri tutdu. Bu nəticə ümumi komanda hesabında Azərbaycanın tarixində ən yaxşı nəticədir. Qazanılan medallara görə əvvəlki Olimpiada ilə müqayisə etsək, Parisdəki Oyunlar ölkəmiz üçün London-2012-dən sonra ikinci ən yaxşı oyundur. İndiyədək Oyunlarda 2 qızıl və 2 gümüş də var idi, amma bu dəfə iki bürünc medal artıq qazanıldı.**

Xatırladaq ki, Paris Olimpiadası Azərbaycan idmançılarının müstəqil ölkənin təmsilçiləri kimi iştirak etdiyi doqquzuncu Olimpiada idi. İdmançılarımız 1952–1988-ci illərdə SSRİ yığmasının, 1992-ci ildə isə MDB millisinin tərkibində çıxış ediblər. 206 ölkə arasında son 30-cu yer isə Azərbaycan üçün Oyunlarda müstəqil iştirak etdiyi bütün dövr ərzində ən yaxşı göstərici oldu. Bundan əvvəl Azərbaycan üçün ən yaxşı göstərici "London 2012" Yay Olimpiya Oyunları olub. "Dumanlı Albion"da da idmançılarımız ümumi komanda hesabında 204 ölkə arasında 32-ci yeri tutmuşdular.

Azərbaycan Olimpiadaya yaxşı nəticə ilə başladı. Hidayət Heydərov ilk qızılını yarışın üçüncü günü – iyulun 29-da qazandı. Daha üç gün keçdi və Zelim Kotsoyev Olimpiya çempionu oldu. Oyunların altı ilk günündə iki qızıl! Hər iki idmançımız ümidlərimizi daha çox doğrultdu.

Olimpiya Oyunlarında heç vaxt iki qızıldan çox mükafat almamışıq. O an Parisdə rekordun olacağı görünürdü. Qızıla əsas iddiaçılar Alfonso Dominqes və bir neçə güləşçi idi (taekvondoçu Həşim Maqomedovun finala yüksələcəyi gözlənilmirdi). Özbəkistanlı boksçuya qarşı finalda Alfonso Dominqes bir xal fərqi ilə uduzdu.

Yeri gəlmişkən, müqayisə üçün qeyd edək ki, Ermənistan bu dəfə, ümumiyyətlə, qızılsız qaldı və 3 gümüş və bir bürünc medalla ümumi komanda hesabında 67-ci yeri tutdu. Gürcüstan isə 3-ü qızıl olmaqla ümumilikdə yeddi medal qazandı və nəticədə 24-cü yerdə qərarlaşdı.

Paris Olimpiadasının qalibi ABŞ oldu. Amerikalılar 40 qızıl, 44 gümüş və 42 bürünc medal qazandılar. Bundan əlavə, ABŞ qazanılan medalların sayına görə də Olimpiadanın lideri oldu - 126 medal. Amerikalılar ən çox qızıl medalı "Yüngül atletika" (14), "Üzgüçülük" (8) və "İdman gimnastikası" (3) yarışlarında aldılar.

İkinci yeri 40 qızıl, 27 gümüş, 24 bürünc medal qazanan Çin komandası tutdu. Çin idmançıları ən yaxşı nəticəni (8) suya tullanma yarışında göstərdilər. Onlar stolüstü tennis, atıcılıq və ağır atletika üzrə də fərqləndilər (hər növ üzrə 5 qızıl medal). Çin yığmasının aktivində ümumilikdə 91 medal var.

Üçüncü yerdə Yaponiya qərarlaşdı: 20 qızıl, 12 gümüş və 13 bürünc medal. "Gündoğar" ölkənin idmançıları ən çox qızıl medalı (8) "Güləş" növündə aldılar. Sonrakı yerləri "Cüdo" (3), "İdman gimnastikası" (3), "Qılıncoynatma" (2), "Skeytbord" (2), "Atletika" (1) və "Breaking" (1) tutur.

Medalların sayına görə ilk beşliyə Avstraliya (18-19-16) və Fransa (16-26-22) da daxil oldu.

Sağlamlıq

## İsti havalar ürəyi təntidir

**Ürək xəstəlikləri olan insanlar isti, günəşli havalarda sağlamlıqlarına daha diqqətli olmalı, günün müəyyən saatlarında bayıra çıxmamalıdırlar. Çünki havanın temperaturu qalxdıqca, ürək problemi olanlarda təzyiqin artması, qan laxtalanması, infarkt və insult riskinin tez-tez rast gəlinməsi müşahidə edilir. Ona görə də belə insanlar isti havalarda ehtiyat tədbirlərinə əməl etməlidirlər.**



Qanın tərkibi maye–plazmadan və digər qan komponentlərindən ibarətdir. İsti havanın təsirindən tər və tənəffüs vasitəsilə bədəndəki suyun bir hissəsi xaric olur. Bədəndə suyun azalması qanın tərkibini dəyişdirir. Belə ki, maye itkisi qanın qatılaşmasına səbəb olur. Bu da öz növbəsində tromb yaranmasına və lazımi tədbirlər görməyəndə infarkt və insulta şərait yaradır.

Mütəxəssislərin fikrincə, isti havalarda çoxlu maye içmək, qoz-fındıq, meyvə-tərəvəz qəbulunu artırmaq lazımdır. Bu qidalar orqanizmdən maye ilə birlikdə xaric olunan kalium və maqneziumun bərpasına kömək edir.

***Z.HÜSEYNLİ***
***XQ***

# Olimpiya qələbəsinin dəyəri

**Parisdə keçirilən Olimpiya Oyunlarında yalnız 2 idman növü üzrə yarışların qalibləri ilk dəfə təkcə medallar deyil, həm də nağd ödənişlər alacaqlar. Bununla belə, Olimpiya idmançıları üçün pul qazanmağın başqa yolları da var.**

1896-cı ildə Afinada müasir Olimpiya Oyunları başlayanda onlar sırf həvəskar idi, peşəkar idmançılar və pul mükafatları yox idi. İndi tam başqa mənzərə ilə üz-üzəyik. Bu gün Paris Olimpiadasında ildə yüz milyonlarla dollar qazanan super varlılardan tutmuş, onu çətinliklə özünə rəva görə bilən idmançılar yarışırlar.

Olimpiadaçılar sponsorlardan tutmuş, öz ölkələrinin maliyyə mükafatlarına qədər müxtəlif mənbələrdən pul ala bilirlər. İndi isə ilk dəfədir ki, Oyunlarda onlara pul mükafatları verilir - lakin bu, bütün idman növlərinə aid deyil.

Paris 2024-də təmsil olunan 32 idman növündən pul mükafatı yalnız 2-də - atletika və boksda veriləcək. Atletikanın beynəlxalq idarəedici orqanı olan "World Athletics" gözlənilmədən aprel ayında açıqladı ki, 2024-cü il Paris Oyunlarında qızıl medal qazanan idmançılar yarışda qalib gəldikləri üçün 50 min dollar alacaqlar.

Bir ay sonra Beynəlxalq Boks Assosiasiyası (BBA) pul mükafatlarını da verəcəyini bildirdi: 100 min dollar Olimpiya çempionlarına veriləcək. Bu məbləğin dörddə biri idmançıların milli federasiyalarına, dörddə biri isə onların məşqçilərinə ödəniləcək. Hər iki idman növündə gümüş və bürünc mükafatçılar daha az məbləğdə, boksda isə beşinci yerə qədər olan idmançılar da mükafatlandırılacaqlar. Mükafat pulu birbaşa Olimpiya Komitəsindən deyil, iki assosiasiyanın rəhbər orqanlarından veriləcək.

Beynəlxalq Atletika Federasiyaları Assosiasiyası (Dünya Atletika) Olimpiadadan əldə olunan gəlirin bir hissəsini Beynəlxalq Olimpiya Komitəsindən alır. Əvvəllər assosiasiya bu vəsaiti sözün geniş mənasında idmançıların inkişafına sərf edirdi, ona görə də indi bəzi müşahidəçilərdə Oyunlarda qələbələrə görə nağd ödənişlərin tətbiqinin düzgün qərar olub-olmaması ilə bağlı sual doğurur.

Böyük idman yarışlarında ixtisaslaşan Koventri Universitetinin Tədqiqat Mərkəzindən Tom Beyson deyir: "Yüngül atletikada qızıl medal qazananların böyük sponsorluq və reklam müqavilələri olan eyni insanlar olması ehtimalı yüksəkdir". Onun sözlərinə görə,"tənqidlərdən biri bu pulun karyerasının zirvəsində olanlara deyil, gənc idmançılara verməklə daha yaxşı istifadə oluna biləcəyilə bağlıdır".




Lakin hətta olimpiya çempionları da əlavə puldan istifadə edə bilərdilər, çünki onların bəziləri çətin maliyyə vəziyyətinə düşüblər. Olimpiya karyerası ərzində dörd qızıl və iki gümüş medal qazanan sovet gimnastikasının əfsanəsi Olqa Korbut 2017-ci ildə üç medalını 333,5 min dollara satmalı olub.

İdmançıların Oyunlarda medallara görə maddi cəhətdən mükafatlandırılmasının bir çox başqa yolları da var. Uğurlu çıxışlarına görə bir çox idmançı ölkələri tərəfindən mükafatlandırılacaq. Güman edilir ki, ən böyük mükafatı Sinqapur verir: qızıl medal qazananların hər biri 750 min dollar alacaq.

Fransa idmançıları üçün bu məbləğ 80 min avro, mərakeşli idmançılar üçün isə daha yüksəkdir - 200 min ABŞ dolları. ABŞ-də bu rəqəm 37 min dollardır. Amma bəzi ölkələr, məsələn, Böyük Britaniya olimpiyaçılara heç bir maliyyə mükafatı vermir.

Bu məbləğlər kiçik olmasa da, dünyanın ən məşhur idmançılarının qazana biləcəyi nəhəng sərvətə yaxın deyil. T.Beyson deyir: "Oyunlarda həm ABŞ milli komandasının basketbolçuları kimi böyük maaş alan idmançılara, həm də özlərini təmin etmək üçün əlavə yerlərdə işləyən idmançılara rast gəlmək olar".

"Forbes"in illik ən zəngin idmançılar siyahısına görə, ispaniyalı qolfçu Jon Rahm Paris-2024 Oyunlarında ən çox qazanan idmançıdır. Jurnal onun ötən il 218 milyon dollar qazandığını və bu pulun böyük hissəsini Səudiyyə Ərəbistanı tərəfindən maliyyələşdirilən "LIV Golf Tour"da iştirakından əldə etdiyini düşünür.

Paris Olimpiadasında iştirak edən zəngin idmançılardan biri də ABŞ-nin ulduz basketbolçusu Lebron Ceymsdir. Onun ötən il 128 milyon dollar qazandığı güman edilir.

Qolf və basketbolun böyük beynəlxalq şöhrətini nəzərə alsaq, Olimpiadada iştirak çox sayda idmançı üçün maliyyə vəsaiti əldə etmək baxımından əhəmiyyətlidir. Çox vaxt idmançıların müqavilələrində fəxri kürsüyə qalxdıqları təqdirdə sponsorlardan mükafat alacaqlarına dair bənd olur. Bir qayda olaraq, bu müqavilələr məxfidir, lakin 2016-cı ildə Nike və New Balance arasında hüquqi mübahisə zamanı məlum olmuşdu ki, amerikalı qaçışçı Boris Berian Olimpiadada qızıl qazanacağı təqdirdə 150 min dollar alacaq.

"Düşünürəm ki, bir çox insanlar Avropa komandalarında oynayan ən yaxşı amerikalı idmançıları və ya dünya səviyyəli futbolçuları görəndə düşünürlər ki, həftədə 100 min-200 min dollar qazanmaq hər bir idmançı üçün normadır, lakin bu, əslində belə deyil", – T.Beyson bildirir.

Onun sözlərinə görə, "dolanışığını təmin etməkdə çətinlik çəkən bir çox idmançı var": "Bir neçə il əvvəl Avstraliyada bir araşdırma aparıldı və nəticədə 2032-cil il Olimpiadasına hazırlaşan idmançıların 40 faizinin başqa yerlərdə çalışdığı və ya tam ştatda olduğu ortaya çıxdı".

Dünya idmanının ən zəngin ulduzlarının yaşadığı ABŞ-da belə bir çox idmançı çətin anlar yaşayır. ABŞ Olimpiya və Paralimpiya Komitəsinin son araşdırması göstərdi ki, hazırkı idmançıların 26,5 faizi ildə 15 min dollardan az qazanır.

Olimpiadada ən yaxşı idmançıların mükafatlandırılmasının idman federasiyaları tərəfindən vəsaitdən yaxşı istifadə edib-etməmələri ilə bağlı qızğın müzakirələr davam edəcək. Çox güman ki, bu təcrübə atletika və boksdan başqa digər idman növlərində də tətbiq oluna bilər.

Bəs qızıl medalın dəyəri nə qədərdir?

Nəzərə alsaq ki, builki qalibin medalında 505 qram gümüş və 6 qram qızıl var (qızıl medallar 1912-ci ildən təmiz qızıldan hazırlanmır), onların xalis dəyəri 950 dollara bərabərdir.

Lakin Paris Olimpiya çempionları qələbələrinin şöhrəti və misilsiz xatirəsi daha qiymətlidir.

***Hazırladı:***
***S.ELAY***
***XQ***

Hava

## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 13-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 30-35° isti olacaq.**

Atmosfer təzyiqi 755 mm-dən 758 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 28-33°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

*Sabirabad rayonu Nizami bələdiyyəsinin mülkiyyətində olan 13.50 hektar torpaq sahəsinin planı və ölçüsü sənədləri itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Rasim Kazımova qardaşı

**AZƏR HƏKİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3595**
**SİFARİŞ 1767**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**

**Çapa imzalanmışdır 00:00**